RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 104 (9849) 21 may 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Dar gündə tanınan dost, etibarlı tərəfdaş

## Prezident İlham Əliyevin qətiyyəti Macarıstanda bu cür dəyərləndirilir

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə mayın 20-də Macarıstana işgüzar səfərə gedib.**

**Həmin gün İlham Əliyevin Viktor Orban ilə məhdud və geniş tərkibdə görüşləri olub.**

**Azərbaycan Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər.**

→ 2-3

## Azərbaycan-Macarıstan strateji əməkdaşlığının regional perspektivləri

Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə səmimi dostluq münasibətləri, iki ölkə arasında müntəzəm surətdə həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti Macarıstanda 2023-cü ilin yanvar ayında rəsmi, avqust ayında işgüzar, Macarıstanın Baş naziri Azərbaycanda 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında işgüzar səfərlərdə olublar.

→ 6

## Ölkəmizin hüquq-mühafizə orqanları xarici transmilli cinayətkarlığa və bütün növ təhdidlərə qarşı mübarizəyə töhfə verirlər

### BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GLOBE Şəbəkəsi) 6-cı Plenar iclasının iştirakçılarına

Hörmətli iclas iştirakçıları!

Sizi BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin Bakı şəhərində keçirilən 6-cı Plenar iclasında salamlayıram.

Bu tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun bariz göstəricisidir. Dünyanın müxtəlif hüquq sistemlərini təmsil edən peşəkarları bir araya gətirən bu toplantı korrupsiyaya qarşı mübarizədə ortaq iradənin təcəssümüdür.

Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir. Bu istiqamətdə hüquqi və institusional çərçivə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əsasında formalaşmışdır. Bu qurumlar rəqəmsal transformasiya, açıq hökumət prinsipləri və beynəlxalq əməkdaşlıq vasitəsilə şəffaflıq və hesabatlılığın möhkəmləndirilməsində vacib rol oynayır.

Azərbaycan uzun illər ərzində Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmış, çoxsaylı müharibə və insanlığa qarşı cinayətlər törədilmişdir. Bu faktlar beynəlxalq hüququn fundamental prinsiplərinin və insan haqlarının açıq tapdalanması idi.

İşğal olunmuş ərazilərdə illər ərzində təbii sərvətlərimizin qanunsuz istismarı, genişmiqyaslı korrupsiya və infrastrukturun məqsədli şəkildə dağıdılması hökm sürmüşdür. Nəhayət, 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olunmuşdur. İşğala son qoyulması suverenliyin və ədalətin bərpası ilə yanaşı, həmin ərazilərə həyatın və qanunçuluğun qayıdışı ilə müşayiət olunan yeni bir mərhələnin başlanğıcı olmuşdur. Azad edilmiş torpaqların tərəqqi məkanına çevrilməsi dövlət siyasətimizin əsas sütunlarından biridir. Azərbaycan bu gün də regionda davamlı sülh və sabitliyə nail olmaq üçün öz konstruktiv səylərini qətiyyətlə davam etdirir.

Bakıda ötən ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilmişdir. Bu mötəbər tədbirə evsahibliyi edən Azərbaycan dünya liderlərini, beynəlxalq təşkilatların nümayəndələrini və müvafiq sahələrin mütəxəssislərini bir araya gətirməklə qlobal iqlim çağırışlarına qarşı mübarizədə həmrəylik nümayiş etdirmiş, çoxtərəfli diplomatiyaya sadiqliyini bir daha təsdiqləmişdir.

Azərbaycan Respublikası müstəqilliyindən ötən dövr ərzində böyük yol qət etmişdir. Bütün sahələrdə, o cümlədən hüquq-mühafizə sistemində aparılmış genişmiqyaslı islahatlar nəticəsində davamlı inkişafa, sabitliyə nail olunmuş, qanunun aliliyi, insan hüquq və azadlıqlarının qorunması təmin edilmişdir. Bu gün ölkəmizin hüquq-mühafizə orqanları xarici tərəfdaşları ilə səmərəli əməkdaşlıq edərək transmilli cinayətkarlığa və bütün növ təhdidlərə qarşı mübarizəyə töhfə verirlər.

Ötən ilin payızında dünyanın müxtəlif ölkələrini təmsil edən hüquqşünasları birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransı və Ümumi Yığıncağının Bakıda keçirilməsi cinayətkarlığın bütün növlərinə qarşı birgə mübarizə aparmaq və bunun üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etmək əzmimizi bir daha nümayiş etdirdi.

Hazırda süni intellekt, rəqəmsal maliyyə sistemləri və kibermühitlə bağlı texnoloji inkişaf korrupsiya və digər cinayətlərin yeni formalarının yaranmasına səbəb olmuşdur. Bu mürəkkəb və sürətlə dəyişən çağırışlar hüquq-mühafizə orqanları üçün qlobal miqyasda yeni və çoxşaxəli vəzifələr müəyyən edir. Azərbaycan bu təhlükələrin qarşısını almaq üçün beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq çərçivəsində öz imkanlarını gücləndirməyə sadiqdir.

Ölkəmiz BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Qlobal Əməliyyat Şəbəkəsi ilə əməkdaşlığa xüsusi önəm verir. Gənc platforma olmasına baxmayaraq, GLOBE Şəbəkəsi qısa müddət ərzində müxtəlif ölkələrdən antikorrupsiya sahəsində çalışan peşəkarları birləşdirən səmərəli və inklüziv beynəlxalq mexanizmə çevrilmişdir.

Əminəm ki, bu Plenar iclas korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açaraq bu sahədə qarşıya qoyduğumuz vəzifələrin icrasına və ortaq məqsədlərin reallaşmasına əhəmiyyətli töhfə verəcəkdir.

Bir daha hamınızı Azərbaycanda salamlayır, iclasın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2025-ci il*

## Azərbaycan Konstitusiyası - qüdrətli dövlətin və firavan həyatın təminatçısı




Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi müstəqillik tariximizin ən vacib hadisələrindən biri olmaqla dövlətçiliyimizin möhkəmləndirilməsi, o cümlədən ölkəmizin dünya birliyində nüfuzunun artırılması baxımından əhəmiyyətli ictimai-siyasi hadisə idi. Heydər Əliyevin tarixi xidmətlərindən biri də ilk Konstitusiyanın hazırlanması idi. Ulu Öndər deyirdi: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq".

→ 7

## Özəl sektora real dəstək

### Sahibkarlığın İnkişafı Fondu təkcə iki ayda 550-dən çox biznes layihəsinə güzəştli kredit verib



Dövlətin ən mühüm dəstək mexanizmlərindən biri sahibkarlara maliyyə dəstəyidir. İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu (SİF) bu dəstəyi həyata keçirən əsas qurumdur. Qeyd edək ki, fondun məqsədi Azəbaycanda sahibkarlığı inkişaf etdirmək, biznes fəaliyyətini stimullaşdırmaq və yeni iş yerləri yaratmaqda biznesmenlərə yardım etməkdir. Fond vasitəsilə sahibkarlara aşağı faizli, uzunmüddətli və güzəştli kreditlər təqdim olunur. Bu kreditlər kənd təsərrüfatı, sənaye, turizm, xidmət sektoru, innovativ və startap layihələrə yönəldilir.

→ 9

## Ağdamda daha 50 ailə doğma yurduna qovuşub



Bu mərhələdə Ağdam rayonunun yenidən qurulan Kəngərli kəndinə 50 ailə - 207 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Mayın 20-də doğma yurduna yola salınan köç karvanı Ağdam rayonunun Kəngərli kəndinə çatıb.

→ 10

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

# Dar gündə tanınan dost, etibarlı tərəfdaş

## Prezident İlham Əliyevin qətiyyəti Macarıstanda bu cür dəyərləndirilir

### Budapeştin Beynəlxalq Hava Limanında qarşılanma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə mayın 20-də Macarıstana işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, paytaxt Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidentini Macarıstanın Avropa İttifaqı məsələləri üzrə naziri Yanoş Boka və digər rəsmi şəxslər qarşıladılar.

### Məhdud tərkibdə görüşü





**Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti və Macarıstanın Baş naziri birgə foto çəkdirdilər.



### Geniş tərkibdə görüş



**Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Viktor Orban həm Macarıstana işgüzar səfər etməsinə və səfər çərçivəsində keçirilən ikitərəfli görüşlərə, həm də Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştiraka dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Baş nazir vurğuladı ki, ölkəsinin Türk Dövlətləri Təşkilatında müşahidəçi dövlət olaraq bu tədbirə evsahibliyi etməsi Macarıstanın təşkilat çərçivəsində əməkdaşlığa sadiq olduğuna böyük əhəmiyyət verməsinin növbəti göstəricisidir.

İkitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirən Viktor Orban Macarıstan iqtisadiyyatının çətin vaxtlarında Azərbaycanın dost ölkə olaraq göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini dedi.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq, mütəmadi qarşılıqlı səfərlərin həyata keçirildiyini qeyd etdi.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasının keçirilməsini vacib bir addım kimi qiymətləndirdi. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün Şuşa şəhərində keçirildiyini xatırladan və bunun artıq ənənəyə çevrildiyini deyən dövlətimizin başçısı ikinci bu cür tədbirin müşahidəçi dövlət olaraq Macarıstanda keçirilməsini məmnunluqla vurğuladı.

Söhbət zamanı Azərbaycanla Macarıstan arasında sıx siyasi dialoqun mövcud olduğu, mütəmadi şəkildə məsləhətləşmələrin aparıldığı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəklədiyi qeyd edildi. Azərbaycanın və Macarıstanın beynəlxalq səviyyədə öz ölkələrinin milli maraqları əsasında müstəqil siyasət aparan dövlətlər olduqları vurğulandı. Cəbrayılın Soltanlı kəndinin, həmçinin məktəb tikintisi layihəsinə görə Macarıstana təşəkkür bildirildi.

Humanitar sahədə uğurlu əməkdaşlığa toxunuldu, azərbaycanlı tələbələrin Macarıstanda təhsil almaları və onlara təhsil təqaüdlərinin ayrıldığı qeyd edildi.

Söhbət zamanı enerji, investisiyalar, əczaçılıq, qida sənayesi və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

### Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər

**Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Macarıstanın Baş naziri bəyanatla çıxış etdi.**



#### Baş nazir Viktor Orbanın bəyanatı

-Mən hər birinizi salamlayıram və Prezident Əliyevi Budapeştdə xüsusilə səmimiyyətlə salamlayıram.

Biz bu gün Macarıstanın köhnə dostunu görürük. Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub.

Tarixdə ilk dəfədir ki, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı Macarıstanda keçirilir. Biz bu təşkilata tamhüquqlu üzv deyilik, biz müşahidəçi ölkəyik. Ancaq istənilən şəkildə biz bu gün bu Zirvə toplantısına ev sahibliyi edirik. Bizi sevindirən digər bir amil odur ki, bu gün beynəlxalq diplomatiyada qasırğanın hökm sürməsi, vəziyyətin gündən-günə dəyişməsi, təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə edirlər.

Macarıstanın qonşusu olan ölkədə artıq üç ildir ki, müharibə gedir. Bu günədək Macarıstanın iqtisadiyyatının itkisi 20 milyard avrodan artıqdır. Hər kəsə məlumdur ki, müharibə başlayan gündən bəri Avropa İttifaqı müharibəni genişləndirmək seçimini etmişdir, nəinki sülhü bərqərar etmək. Bundan əlavə, Avropa iqtisadiyyatı olduqca mürəkkəb vəziyyətdədir. Çünki sanksiyalar bazar iqtisadiyyatını və Avropanın inkişafının təməlini sarsıtmışdır. Bazar iqtisadiyyatı, əlbəttə ki, Avropa iqtisadiyyatının təməl prinsipləri idi və bunlar artıq sarsılmış vəziyyətdədir. Deyə bilərəm ki, bu gün Avropa iqtisadiyyatının gəmisi kompas olmadan səyahət edir. Onu da qeyd etmək istəyirəm ki, biz mütəmadi olaraq enerji böhranı şəraitində yaşayırıq. Biz Amerikadan fərqli olaraq, Avropada qaza 3-4 dəfə daha çox pul ödəyirik və bu şəraitdə rəqabətqabiliyyətli iqtisadiyyat qurmaq çətindir.

Biz dənizə çıxışı olmayan bir ölkəyik. Bizim nailiyyətimiz ondan ibarətdir ki, biz Rusiya ilə enerji münasibətlərini qoruyub saxladıq. Bizim üçün istisna tətbiq edilmişdir. Ancaq Ukrayna bizə məhdudiyyətlər tətbiq edir. Türkdilli dövlətlərin dəstəyi olmasaydı, bu gün bizim enerji təhlükəsizliyini təmin etməyimiz çox çətin olardı. Ancaq biz əlimizdən gələni edəcəyik ki, iqtisadiyyatımızın dayanıqlılığı təmin olunsun.

Xanımlar və cənablar, beləliklə etibarlı tərəfdaşın dəyəri məhz bu cür ölçülür. Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı. Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir. Macarıstanın MVM və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra bilər. Mən şadam ki, müəyyən həcmdə qaz ehtiyatları və neft barelləri bizim ixtiyarımızdadır. Ola bilər bu, Azərbaycan üçün çox böyük həcm deyil. Ancaq bizim üçün bu, çox vacib bir məsələdir ki, Azərbaycanın neft yataqlarında payçıyıq. Bu, təkcə iqtisadi baxımdan deyil, sırf mənəvi baxımdan da vacibdir. Bu dostluq sayəsində biz özümüzü daha az mürəkkəb vəziyyətdə, həssas vəziyyətdə hiss edirik.

Eyni zamanda iqtisadiyyat məsələlərindən başqa, biz Azərbaycana yatırılan Macarıstan sərmayələri haqqında danışdıq. Biz sülh haqqında da danışdıq. Çünki sülh təkcə müharibə şəraiti üçün vacib deyil, iqtisadi baxımdan da vacibdir. Biz razılığa gəldik ki, bu müharibənin döyüş meydanında həlli yoxdur. Bu, yalnız danışıqlar masasında olmalıdır. Bu, təkcə Rusiya-Ukrayna müharibəsinə deyil, digər münaqişələrə də şamil edilə bilər.

Mən Prezident Əliyevi təbrik etmək istəyirəm ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni üzərində razılıq əldə olunub. Ümid edirəm ki, sülh müqaviləsinin imzalanması tezliklə baş tutacaq. Bu, olduqca vacib bir məsələdir.

Cənab Prezident, Sizi burada bir daha salamlayırıq.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

*Ardı 3-cü səh.*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

# Dar gündə tanınan dost, etibarlı tərəfdaş

## Prezident İlham Əliyevin qətiyyəti Macarıstanda bu cür dəyərləndirilir

## Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər

Əvvəli 2-ci səh.

### Prezident İlham Əliyevin bəyanatı







-Hörmətli cənab Baş nazir, əziz dost.

Hörmətli xanımlar və cənablar.

Cənab Baş nazir, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən Macarıstana tez-tez gəlirəm. Son dəfə 2023-cü ildə gəlmişəm. Siz də Azərbaycana tez-tez gəlirsiniz. Sizin son səfəriniz keçən ilin noyabr ayında olmuşdur. Yəni bu, onu göstərir ki, aramızda olan təmaslar müntəzəm xarakter daşıyır və Azərbaycan-Macarıstan əlaqələri uğurla inkişaf edir.

Biz dost ölkələrik, strateji tərəfdaşıq. Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ölkə ərazisinin sahəsi də demək olar bir-birinə çox yaxındır. Oxşarlıqlardan biri də Sizin də qeyd etdiyiniz kimi, Macarıstan açıq dənizlərə çıxışı olmayan ölkədir. Azərbaycan da elə ölkələrdəndir. Düzdür, biz Xəzər dənizinin sahilində yerləşirik, ancaq açıq dənizlərə bizim də çıxışımız yoxdur. Bir də Siz qeyd etdiniz ki, Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Siz müharibə aparan bir ölkə ilə, biz isə digəri ilə həmsərhədik. Yəni, bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik.

Azərbaycan, eyni zamanda dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur. Biz öz ərazimizdə müharibə aparmışdıq. Ermənistanın 30 illik işğalına son qoymuşduq. Düzdür, bizim müharibəmiz Rusiya-Ukrayna müharibəsi kimi 3 ildən çox yox, cəmi 44 gün ərzində aparılmışdır. Hər gün biz irəliyə gedirdik, bir addım geri atmamışdıq, ordumuzda bir dənə də olsun fərari olmamışdır. Ermənistan ordusunda isə onların özlərinin etirafına görə 12 min fərari olmuşdur.

İkinci Qarabağ müharibəsi beynəlxalq hüquq çərçivəsində - BMT-nin Nizamnaməsi əsasında aparıldı. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində hər bir ölkənin özünümüdafiə hüququ var. Biz də bu hüquqdan istifadə edərək, uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik.

Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı onu deyə bilərəm ki, sülh danışıqlarının İkinci Qarabağ müharibəsindən sonra təşəbbüskarı da biz olmuşuq. Sülh müqaviləsinin mətninin müəllifi də biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib, təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib. Qaldı ki, sülh müqaviləsinin bağlanmasına, burada iki əsas şərt var. Birincisi, Ermənistan konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq de-fakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur.

Bizim ikitərəfli gündəliyimiz də kifayət qədər genişdir. Biz bu gün bunu geniş müzakirə etdik. Energetika sahəsində uğurlu əməkdaşlıq edirik. Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində pay sahibidir - "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında. Gələn ilin əvvəlində növbəti kontrakt imzalanacaqdır. Bu barədə də bu gün fikir mübadiləsi aparıldı. Azərbaycanın qurudakı neft yataqlarında Macarıstan şirkəti fəaliyyətə başlayacaq. Biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq. Mən bu gün qeyd etdim və Baş nazir burada qeyd etdi ki, biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur. Biz, eyni zamanda Macarıstanla "yaşıl enerji" üzrə fəal işləyirik. Azərbaycanın çox böyükmiqyaslı "yaşıl enerji" gündəliyi vardır. Biz növbəti beş il ərzində 6 min meqavat gücündə "yaşıl enerji" istehsal edəcəyik. 500 meqavat son iki il ərzində yaradıldı, 6 min meqavat beş il ərzində təmin ediləcək. Mən bütün bu rəqəmləri kontraktlar əsasında deyirəm, yəni bu, reallaşacaq layihələrdir. Beləliklə, təkcə bu layihələr bizə təqribən 3-4 milyard kubmetr qaza qənaət etmək üçün imkan yaradacaq ki, bunun da əsas istiqaməti təbii ki, Türkiyə və Avropa ölkələri olacaqdır.

Bütün başqa məsələlərdə də biz iki dost və tərəfdaş ölkə kimi birgə fəaliyyət göstəririk. Bildiyiniz kimi, Macarıstanın təşəbbüsü ilə sabah ikinci qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Birinci Zirvə görüşü keçən il Şuşa şəhərində keçirilmişdir. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı Azərbaycan olmuşdur və bu estafeti bizdən Macarıstan alıb, biz bunu alqışlayırıq. Bu, bir daha onu göstərir ki, Macarıstan öz tarixi köklərinə çox bağlıdır, bu, bizi də çox sevindirir.

Çıxışımın sonunda Macarıstanı bütün əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Biz bilirik ki, Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir. Xüsusilə Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir. Buna baxmayaraq, dostum Viktor Orban həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutub. Biz bunu alqışlayırıq. Hər zaman Macarıstanın maraqlarını qoruyub və Macarıstan üçün nə xeyir gətirirsə, o təşəbbüslərə qoşulub, nə xeyir gətirmirsə, o təşəbbüslərdən həmişə uzaq olub. Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var. Biz Macarıstanı çox sevirik, o cümlədən bu amillərə görə. Sizə və bütün dost macar xalqına bu istiqamətdə yeni uğurlar arzulayırıq.

Sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Həyat yoldaşım və mən zati-alinizə və Azərbaycan xalqına milli bayramınız münasibətilə ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunuq.

Mən çox şadam ki, ölkələrimiz belə sıx əlaqələrə malikdir və dostluğumuzun daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm.

Ümidvaram və əminəm ki, ölkələrimiz qlobal miqyasda hamımıza təsir edən iqlim dəyişikliyinin və ətraf mühit problemlərinin müsbət həlli üçün əməkdaşlıq edə bilərlər.

Həyat yoldaşım və mən bayram münasibətilə Sizə və bütün azərbaycanlılara ən xoş arzularımızı yetirməkdən böyük məmnunluq duyuruq.

*Hörmətlə,*

***Əlahəzrət III ÇARLZ,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kralı***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Zati-alinizi ölkənizin Müstəqillik Günü münasibətilə böyük məmnuniyyətlə təbrik edir və ən xoş arzularımızı çatdırırıq.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzu edirik.

Zati-alinizə ən dərin hörmət və ehtiramımızı bildiririk.

*Qardaşınız,*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu yaxınlarda Azərbaycanın və Ermənistanın sülh sazişi ilə bağlı razılığa gəlmələri ümid mənbəyidir və biz perspektiv vəd edən bu inkişafı alqışlayırıq. Biz yalnız Ermənistanla müqavilənin mümkün qədər tez imzalanmasını təşviq edə və bununla da hər iki ölkənin xalqlarının qarşılıqlı rifahı üçün bu münaqişəni qəti şəkildə başa çatdıra bilərik.

Fürsətdən istifadə edərək, Sizin və ailənizin rifahı, eləcə də Azərbaycan xalqının əmin-amanlığı və xoşbəxt gələcəyi ilə bağlı ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi, ölkənizin daha da inkişafı və rifahı naminə ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Misir Azərbaycanla illər ərzində uğurla inkişaf edən və ortaq maraqlarımızın irəlilədilməsinə yönəlmiş güclü öhdəliklə möhkəmlənən səmimi və yaxın ikitərəfli münasibətləri yüksək qiymətləndirir.

Fürsətdən istifadə edərək, qarşıdakı illərdə Misir-Azərbaycan əlaqələrinin daha da dərinləşməsində və dost xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığımızın şaxələndirilməsində Misirin maraqlı olduğunu bir daha vurğulamaq istəyirəm.

Hörmətli cənab Prezident, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, dost Azərbaycan xalqına davamlı inkişaf və firavanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və ölkənizin xalqına ən səmimi təbriklərimi çatdırım.

Çex Respublikası Azərbaycan Respublikası ilə qarşılıqlı münasibətlərin səviyyəsini, eləcə də əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi sahəsində ortaq maraqlarımızı yüksək qiymətləndirir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırıram.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaq, xalqınıza daha çox tərəqqi və firavanlıq arzulamaq mənə böyük məmnunluq verir.

Ölkələrimiz arasında qardaşlıq münasibətlərinin və qarşılıqlı ehtiramın daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm.

Mən, həmçinin xalqlarımızın rifahı naminə əməkdaşlığımızı bütün sahələrdə daha da dərinləşdirmək və genişləndirmək üçün zati-alinizlə birgə işi davam etdirməkdə maraqlıyam.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına şəxsən öz adımdan, Avstraliya hökuməti və xalqı adından ən xoş arzularımı çatdırıram.

Əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcəkdir.

*Hörmətlə,*

***Samanta MOSTİN,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri!

Milli bayramınız - 28 May - Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan xalqını Malavi hökuməti, xalqı adından və öz adımdan təbrik etməkdən məmnunluğumu bildirirəm.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın rifahı naminə qarşıdakı illərdə də möhkəmlənəcəyinə ümidimi ifadə edirəm.

Zati-aliləri, Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Lazarus Makkarti ÇAKVERA,***
***Malavi Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Ölkənizin Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına daha sürətli inkişaf arzulayıram.

*Hörmət və ehtiramla,*

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,***
***Baş nazir***

# Azərbaycan nümayəndə heyəti beynəlxalq konfransda iştirak etmək üçün Ankarada səfərdədir

Mayın 21-də Türkiyənin Ankara şəhərində keçiriləcək "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfransda iştirak məqsədilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin başçılığı ilə nümayəndə heyəti Ankaraya səfər edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Prezident Administrasiyasının rəsmiləri, Milli Məclisin deputatları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, ADA Universitetinin, Qərbi Azərbaycan İcmasının və "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin nümayəndələri daxildir.

Səfər iştirakçıları mayın 20-də Ankaradakı Heydər Əliyev Parkında Azərbaycan xalqının Ümummilli Liderinin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Sonra Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn edildiyi Anıtqəbir ziyarət olunub, Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyulub, əziz xatirəsi yad edilib.

Daha sonra Türkiyə Böyük Millət Məclisində sədr Numan Kurtulmuşla keçirilən görüşdə Azərbaycan ilə qardaş ölkə arasında parlamentlərarası münasibətlərin sağlam təməllər üzərində qurulduğu qeyd olunub, bu dostluq və qardaşlıq əlaqələrinin beynəlxalq müstəvidə gətirdiyi dividendlər, parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının fəaliyyətinin daha da gücləndirilməsi məsələləri haqqında danışılıb.

Türkiyə Respublikası Prezidentinin Administrasiyasında vitse-prezident Cevdet Yılmazla görüşdə isə iki qardaş ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafı haqqında fikir mübadiləsi aparılıb. Tərəflər Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın yorulmaz və qətiyyətli addımları nəticəsində Azərbaycanın və Türkiyənin "Bir millət, iki dövlət" ideyasını hər zaman qoruduğunu, ən çətin anlarda bir-birinə dayaq olduqlarını xüsusi vurğulayıblar.

Səfər çərçivəsində, həmçinin Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Efkan Ala ilə görüş keçirilib. Görüşdə hakim siyasi partiyaların gələcəkdə müxtəlif məsələlərlə bağlı qarşılıqlı təcrübə mübadiləsinin dərinləşdirilməsi haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, beynəlxalq konfransa Azərbaycan və Türkiyədən 200-dən çox iştirakçı qatılacaq.

# Parlament diplomatiyası

## Azərbaycan-İspaniya əlaqələrinin hazırkı vəziyyəti məmnunluq doğurur

### Milli Məclisin Sədri Sahibə Qafarova İspaniya Deputatlar Konqresinin Sədri ilə görüşüb









**Milli Məclisin Sədri Sahibə Qafarova İspaniya Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin Deputatlar Konqresinin Sədri Fransina Armenqol ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarovanı salamlayan Fransina Armenqol bu səfərin parlamentlərimiz və ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcəyinə inamını ifadə edib. O, COP29-un ölkəmizdə yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə təşəkkürünü bildirib və diqqətə çatdırıb ki, mühüm qərarların qəbul edildiyi həmin konfransda İspaniya Krallığı Hökumətinin sədri də iştirak etmişdi.

Deputatlar Konqresinin Sədri qeyd edib ki, Azərbaycan-İspaniya əlaqələrinin indiki vəziyyəti məmnunluq doğurur və belə bir inamı ifadə edib ki, bundan sonra da parlamentlər hökumətlər arasında əməkdaşlığı dəstəkləməyə davam edəcəklər. Bildirilib ki, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı da mühüm əhəmiyyət kəsb edir və bir sıra ispan şirkətləri Azərbaycanda işləməkdə olduqca maraqlıdırlar. Bu da Azərbaycanın siyasi və coğrafi əhəmiyyətindən irəli gəlir.

Milli Məclisin Sədri Sahibə Qafarova öz növbəsində onu İspaniyaya səfərə dəvət etdiyinə görə Deputatlar Konqresinin Sədrinə təşəkkürünü bildirib. O, Azərbaycan-İspaniya əlaqələrinin mövcud vəziyyəti və inkişafı barədə fikirlərini bölüşüb. Sahibə Qafarova İspaniya Krallığı Hökumətinin sədri Pedro Sançezin COP29 çərçivəsində ölkəmizə səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlar zamanı əlaqələrin inkişafı üzrə əldə olunmuş razılaşmaların uğurla icrasının əməkdaşlığımızı daha da inkişaf etdirəcəyinə əminliyini bildirib.

Görüşdə Azərbaycan-İspaniya iqtisadi əlaqələri haqqında da fikir mübadiləsi aparılıb. Milli Məclisin Sədri bərpaolunan enerji və digər sahələrdə əlaqələrin inkişafı üçün yaxşı perspektivlər olduğunu qeyd edib. O bildirib ki, həm Azərbaycan, həm də İspaniya bərpaolunan enerji sahəsində mühüm işlər görürlər. Azərbaycan hazırda bu sahədə mühüm layihələri icra edir və əldə olunan enerjinin Avropaya ixracı üçün işlər görür. Hazırda ölkəmiz Avropa ölkələrinin, o cümlədən İspaniyanın etibarlı enerji təchizatçısıdır və İspaniya şirkətinin TAP-da iştirakı da əməkdaşlığımızın uğurlu nümunələrindən biridir. Milli Məclisin Sədri iqtisadi əlaqələrdən danışarkən, Azərbaycanın nəqliyyat-tranzit imkanlarını xüsusi vurğulayıb, Orta dəhliz üzrə fəaliyyətin Azərbaycan-İspaniya arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri ola biləcəyinə diqqət çəkib.

Görüşdə Cənubi Qafqazda mövcud vəziyyət barədə də danışılıb. Milli Məclisin Sədri Azərbaycan-Ermənistan normallaşma prosesi, iki ölkə arasında mövcud olmuş münaqişənin tarixi, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, işğaldan azad edilmiş ərazilərimizdə aparılan tikinti-quruculuq işləri barədə geniş məlumat verib.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, görüşdən əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova Deputatlar Konqresinin Fəxri qonaqlar kitabını imzalayıb.

*"Azərbaycan"*

## Milli Məclisin nümayəndə heyəti Madriddə Prado muzeyində olub





Milli Məclisin Sədri Sahibə Qafarovanın İspaniya Krallığına rəsmi səfəri davam edir. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində parlament nümayəndə heyəti Madriddə Prado muzeyində olub. Parlament nümayəndə heyətinin üzvləri muzeydə saxlanılan eksponatlarla tanış olublar.

Qonaqlara məlumat verilib ki, muzeydə məşhur rəssamların tabloları, tarixi heykəl nümunələri və qədim sikkə pul vahidləri ziyarətçilərə təqdim edilir. İl ərzində üç milyona yaxın insanın üz tutduğu bu mədəniyyət ocağının kolleksiyasında təqribən 8600-dan çox rəsm əsəri saxlanılır.

*"Azərbaycan"*



## Miras hüququ sahəsində qeyri-müəyyənliklər aradan qaldırılacaq

Mayın 20-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib. İclası açan komitə sədri Əli Hüseynli gündəliyə 7 məsələnin daxil edildiyini söyləyib.

İlk olaraq "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub.

Məsələ ilə bağlı ədliyyə nazirinin müavini Toğrul Hüseynov məlumat verib. Bildirilib ki, təqdim olunan qanun layihəsinin əsas mahiyyəti ədliyyə orqanlarının xüsusi xəzinə hesabının yaradılmasından ibarətdir. Məlumat verilib ki, bu hesabın yaradılmasında məqsəd nazirliyin hesabına daxil olan maliyyə vəsaitlərinin vahid hesaba cəmlənməsi, həmin vəsaitlər hesabına ədliyyə orqanlarında çalışan əməkdaşların maddi təminatının və sosial müdafiəsinin gücləndirilməsi, eləcə də nazirliyin elmi-texniki potensialının artırılmasıdır.

Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Kəmalə Paşayeva gündəliyin ikinci məsələsi - Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Məlumat verilib ki, qanun layihəsi mirasın qəbulu institutunun tələblərinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Bildirilib ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 dekabr 2023-cü il tarixli qərarı ilə mirasın qəbuluna dair xüsusi qəbul müddəti şərtini müəyyən edən Mülki Məcəllənin 1246 və 1273-1-ci maddələri qüvvədən düşmüş hesab edilib. Bu qərar vətəndaşların mülkiyyət hüququnun daha aydın və təminatlı şəkildə qorunmasına xidmət edir. Məlumat verilib ki, qəbul edilən qərar miras hüququ sahəsindəki hüquqi qeyri-müəyyənliklərin aradan qaldırılmasını və hüquqi münasibətlərin daha stabil şəkildə tənzimlənməsini hədəfləyir.

Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Fərid Əhmədov gündəliyin üçüncü məsələsi - Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Həmin qanun layihəsinin inzibati xətalarla bağlı protokolların və qərarların mərkəzləşdirilmiş qaydada qeydiyyatını və izlənilməsini təmin edəcək. Məlumat verilib ki, layihəyə təklif olunan dəyişikliklərə əsasən, inzibati xətalarla bağlı protokolların və qərarların mərkəzləşdirilmiş qaydada uçotu və izlənilməsi məqsədilə "İCMAL" adlı informasiya sisteminin yaradılması nəzərdə tutulur. Bildirilib ki, bu sistem real vaxt rejimində işləyəcək, protokollara və qərarlara unikal nömrələr veriləcək və cərimələrin ödənilməsinə dair məlumatların düzgünlüyünə nəzarət imkanı yaradacaq.

Daha sonra gündəliyin digər 4 məsələsi - "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş), " Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" (ikinci oxunuş), "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" (ikinci oxunuş) qanun layihələri müzakirə edilib.

Qanun layihələrinin müzakirəsində İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev çıxış edərək təkliflərini irəli sürüblər.

İclasda təqdim edilən qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

## "Yaşayış minimumu haqqında" Qanunda dəyişiklik ediləcək

Mayın 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov gündəlikdə beş məsələnin olduğunu nəzərə çatdırıb.

Əvvəlcə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Məsələ barədə danışan Dövlət Vergi Xidmətinin baş idarə rəisinin müavini Vüqar Qurbanov bildirib ki, sənəd Dünya Bankı Qrupunun "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyaların həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"ndə iflas proseduru başlanılmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barədə məlumatların müvafiq olaraq hüquqi şəxslərin dövlət reyestrində və vergi ödəyicilərinin uçotu reyestrində uçotunun aparılması məqsədilə hazırlanıb.

Layihədə hüquqi şəxsin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin iflas prosesində olması barədə məlumatların reyestrinin aparılması nəzərdə tutulur. Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs müflis elan olunduğu məqamdan və iflas prosesinə xitam verildiyi tarixdən 15 gün müddətində bu barədə vergi orqanına məlumat verməlidir. Habelə hüquqi şəxsin iflas prosesində olması faktının dövlət qeydiyyatı aparılmalı, bununla əlaqədar qeydiyyat orqanına 15 gündən gec olmayaraq ərizə ilə müraciət edilməlidir.

Sənəddə nəzərdə tutulan digər dəyişiklik müddətlərin qısaldılması ilə bağlıdır. Belə ki, Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə, eləcə də onun vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan digər məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, vergi ödəyicisi bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində vergi orqanına məlumat verməlidir. Eyni zamanda "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna əsasən, hüquqi şəxslər təsis sənədlərinə edilən hər bir dəyişiklik barədə həmin dəyişikliyin baş verdiyi andan 40 gün müddətində qeydiyyat orqanına ərizə ilə müraciət etməlidirlər. Təklif olunan dəyişikliyə əsasən, hər iki halda müddətlər azaldılaraq 15 gün müəyyən olunur.

Müzakirələrdə komitə üzvləri Vüqar Bayramov, Aydın Hüseynov, Əlibala Məhərrəmzadə çıxış edərək qeyd və təkliflərini açıqlayıblar. Dövlət Vergi Xidmətinin baş idarə rəisinin müavini Vüqar Qurbanov və komitə sədri Azər Əmiraslanov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonra komitənin üzvü Rövşən Muradov "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

Nəzərə çatdırılıb ki, layihə ölkə ərazisində tibb, təhsil və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının yenilənməsinin hüquqi əsasının yaradılması və yeni qida normalarının müəyyən edilməsi məqsədilə hazırlanıb. Qeyd olunub ki, adıçəkilən müəssisələrdə istifadəsi məqsədəuyğun olan qida məhsullarının çeşidliliyinin minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibinə uyğunlaşdırılmasına, həmçinin müxtəlif növ xəstəliklərin müalicə metodikasından irəli gələrək tibb müəssisələrində yeni qida normalarının müəyyən edilməsinə ehtiyac yaranıb.

Qanuna edilən dəyişikliyə əsasən, minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları müəyyən ediləcək. Bununla yanaşı, istifadə olunan əsas anlayışlar sırasına "sosial sahəyə aid müəssisələr" anlayışının əlavə edilməsi təklif olunur.

Müzakirələrdə deputat Əli Məsimli məsələ barədə bəzi qeydlərini bildirib. Komitənin sədri Azər Əmiraslanov səsləndirilən fikirlərə öz münasibətini açıqlayıb.

İclasda daha sonra İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Rüstəm Şahbazov "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Qeyd olunub ki, qanunun 8.17-ci maddəsinə əsasən, bütün səhmləri dövlətə məxsus səhmdar cəmiyyətləri yaradılarkən Mərkəzi Bank həmin cəmiyyətlərin səhmlərinin buraxılışını bu qanunun 2-ci fəslinin müddəaları tətbiq edilmədən (bu qanunun 6.3.1-ci və 6.3.3-cü maddələrində göstərilən sənədlərin təqdim edilməsi istisna olmaqla) dövlət qeydiyyatına alır və onlar yerləşdirilmiş hesab edilir. Bu maddə həmin səhmdar cəmiyyətlərin səhmlərinin növbəti buraxılışlarına şamil edilmir.

Dəyişikliyə əsasən, həmçinin səhmlərin dövlət orqanları (qurumları) və ya bütün səhmləri dövlətə məxsus səhmdar cəmiyyətləri tərəfindən əldə ediləcəyi hallarda səhm buraxılışı bu qanunun 6.3.1-ci, 6.3.2-ci (bu qanunun 4.3.6-cı, 4.3.7-ci və 4.3.8-1-ci maddələrində göstərilən məlumatlar istisna olmaqla) və 6.3.3-cü maddələrində göstərilən sənədlərin təqdim edilməsi yolu ilə dövlət qeydiyyatına alınır və həmin səhmlər yerləşdirilmiş hesab edilir.

İclasda "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihəsi də müzakirə olunub. Komitənin üzvü Zaur Şükürov diqqətə çatdırıb ki, layihədə adı çəkilən Anlaşma Memorandumu 2023-cü ilə imzalanıb. Bununla yanaşı, Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) arasında Universal Təhlükəsizlik Yoxlaması Proqramı - Davamlı Monitorinq Mexanizmi (ATTŞYP-DMM) çərçivəsində Anlaşma Memorandumu 2015-ci ildə imzalanıb və Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilib.

İclasda, habelə Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi də nəzərdən keçirilib. Komitə üzvləri sənəddə təklif olunan düzəlişləri məqsədəmüvafiq hesab ediblər.

Komitə iclasında müzakirəyə çıxarılan qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Bakıda GLOBE Şəbəkəsinin 6-cı Plenar iclasının açılış mərasimi keçirilib

**Mayın 20-də Bakıda BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GLOBE Şəbəkəsi) 6-cı Plenar iclasının açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, açılış mərasimində Baş prokuror Kamran Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin iclas iştirakçılarına müraciətini oxuyub (Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Tədbirdə çıxış edən Baş prokuror bildirib ki, Azərbaycan son illər qlobal təşəbbüslərə evsahibliyi edən mühüm beynəlxalq mərkəzə çevrilib. Təkcə ötən il ölkəmiz BMT-nin COP29 İqlim Konfransına və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik toplantısına evsahibliyi edib, hüquq-mühafizə orqanlarının ətraf mühit cinayətlərinə qarşı mübarizəsinə dair yüksəksəviyyəli sessiya da daxil olmaqla, bir sıra vacib tədbirlər uğurla təşkil olunub: "Azərbaycan GLOBE Şəbəkəsinin fəal üzvü olaraq bu platformanı yüksək qiymətləndirir. Bu şəbəkə beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, dürüstlüyün təşviqinə və transmilli korrupsiyaya qarşı birgə mübarizəyə töhfə verir. Bu təşəbbüsün yaranması və inkişafında Səudiyyə Ərəbistanı Krallığının və xüsusilə bu ölkənin korrupsiyaya qarşı mübarizə orqanı olan "Nazaha" təşkilatının əvəzsiz rolu olub. Biz bu mühüm qlobal təşəbbüsə verdikləri töhfəni və göstərdikləri liderliyi yüksək dəyərləndiririk".

Sonra "Dəyərləri rəhbər tutaraq dürüstlüklə idarə olunur - Azərbaycanın korrupsiyaya qarşı mövqeyi" adlı videoçarx nümayiş etdirilib.

Daha sonra BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiya və İqtisadi Cinayətlər Şöbəsinin rəhbəri Bricit Strobel-Şou çıxış edərək deyib: "Bu gün korrupsiyaya qarşı mübarizəyə sadiqliyimizi buradan vurğulayırıq. Korrupsiya sərhəd tanımır, qanunvericiliyin boşluqlarında gizlənir. Əməkdaşlıq isə ən güclü şəbəkədir. Buna görə də korrupsiyanın qarşısını almaq üçün hər şeyi etməliyik. Bizim bu sessiyalar zamanı bilikləri bölüşmək imkanımız yaranacaq. Burada, həmçinin qanunvericilik prioritetlərini müəyyən edə bilərik. Bu platforma müvafiq orqanlar arasında əlaqələrin qurulması üçün vacibdir".

Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun prezidenti Mazin Bin İbrahım Əl-Kahmus bildirib ki, sərhədlərarası korrupsiya cinayətləri ilə mübarizə yalnız bütün dünyada korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının BMT-nin GLOBE Şəbəkəsinin çətiri altında birgə və həmrəy fəaliyyəti ilə mümkün ola bilər. Onun sözlərinə görə, son illərdə şəbəkənin üzvlərinin genişləndirilməsi və müxtəlif beynəlxalq platformalarda potensialının gücləndirilməsi istiqamətində səylər artırılır: "Bu, xüsusilə BMT-nin Korrupsiyaya qarşı mübarizə Konvensiyasına tərəfdar dövlətlər konfransının qərarları, həmçinin G20 liderləri və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin verdiyi siyasi bəyanatlar vasitəsilə özünü göstərir. Fürsətdən istifadə edərək, üzv dövlətləri üzv olmayan ölkələri tez bir zamanda şəbəkəyə qoşulmağa təşviq etməyə və onun faydalarından tam şəkildə yararlanmağa çağırıram".

Çıxışında bu gün qarşıda mühüm məsələlərin müzakirəsinin dayandığını diqqətə çatdıran GLOBE Şəbəkəsinin İdarəetmə Komitəsinin sədr müavini Boni de Moraes Soares fikirlərinə belə davam edib: "Növbəti günlərdə GLOBE Şəbəkəsinin nailiyyətləri barədə düşünəcəyik. Qeyd etməliyəm ki, GLOBE Şəbəkəsinin sənədlərində ümumi sadiqliyimiz əks olunur".

B.Moraes Soares GLOBE Şəbəkəsi üçün birbaşa, sürətli şəkildə, maneələr olmadan əməkdaşlığın aparılmasının vacibliyini vurğulayaraq, əlaqələrin daha da gücləndirilməsinə çağırış edib.

GLOBE Şəbəkəsinin İdarəetmə Komitəsinin sədri Nasser Abaalkail isə qeyd edib ki, korrupsiya sərhəd tanımırsa, bu, bizim ədalət prinsiplərinə sadiqliyimizi daha da gücləndirməlidir. Bildirilib ki, 2021-ci ilin iyununda təsis olunduqdan sonra GLOBE Şəbəkəsi dünyanın hər bir regionunda olan müvafiq orqanları bir araya gətirib: "Hamımızın qarşısında duran məqsəd eynidir. Əməkdaşlığımız korrupsiyadan daha güclü olmalıdır. Birgə gedilən yol son illərdə çox gözəl nəticələr verir. Şəbəkəmizə həm təcrübə aparanlar, həm də digər mütəxəssislər qoşulub. Qarşımızda aydın əməliyyat məqsədi var. Sürətlə işlərimizi apararaq hərtərəfli şəkildə əlaqələr quraq və qərarlar qəbul edək. Bu gün biz yolumuzu davam etdiririk. Növbəti günlər ərzində yeni imkanları nəzərdən keçirəcəyik. Biz baxacağıq ki, innovasiya və texnologiya işimizi hansı şəkildə gücləndirə bilər, ölkələrdə yaşayan vətəndaşlar korrupsiyadan necə qurtula bilər və mübarizə hansı şəkildə aparılmalıdır, oğurlanmış vəsaitlər necə qaytarılmalıdır, bu işlər cəmiyyət üçün hansı real nəticə verməlidir? Beynəlxalq əməkdaşlıq daha sürətli və effektiv şəkildə necə aparıla bilər? Gündəliyə nəzər salsaq görə bilərik ki, orada zəmanəmizin reallığı əks olunub. Korrupsiyanın özü də adaptasiyaya uğrayır. Onda biz də bunu etməliyik. Süni intellekt, sürətli maliyyə tranzaksiyaları və ortaya çıxan iri cinayət növləri. Bütün bunlar uzaqda duran bir çağırış deyil, onlar bu günün reallığıdır. Texnologiya, vəsaitlərin qaytarılması və beynəlxalq hüquqi əməkdaşlıq kimi mövzular ətrafında müzakirələrdə seçim olmalı deyil. Biz hər zaman bir addım öndə olmalıyıq".

GLOBE Şəbəkəsinin icraçı katibi, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Hüquq-mühafizə orqanları və strateji şəbəkələr departamentinin rəhbəri Nil Uolş Plenar iclasın iştirakçılarına videomüraciət ünvanlayıb. Beynəlxalq tədbirə ev sahibliyi etdiyi üçün Azərbaycan Baş Prokurorluğuna minnətdarlığını ifadə edən Nil Uolş korrupsiya ilə bağlı məsələlərin həlli üçün fərqli yolların nəzərdən keçirilməsinin vacibliyini vurğulayıb. "Burada kəşfiyyat və digər proseslər üzərində müzakirələr aparacaq, öz işimizi tənzimləmək üzərində çalışacağıq. Azərbaycana bu tədbirin təşkilinə görə çox minnətdarıq. Mən nəticələri eşitmək üçün səbirsizlənirəm və ümid edirəm ki, növbəti dəfə şəxsən görüşəcəyik", - deyə o bildirib.

Açılış mərasimdən sonra Plenar iclasın gündəliyi qəbul edilib.

Sonra GLOBE Şəbəkəsinin Katibliyi tərəfindən qurumun fəaliyyəti ilə bağlı geniş hesabat təqdim olunub. Hesabatda yeni üzv qurumlarla bağlı məlumat, şəbəkənin İşçi qruplarının fəaliyyəti, regional ofislərin rolu, qarşılıqlı hüquqi yardım alətləri və texnoloji kommunikasiya mexanizmlərinin istifadəsi ətraflı şəkildə iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Ardınca Çin Xalq Respublikasının Milli Nəzarət Komissiyasının təşəbbüsü ilə "Korrupsiyaya qarşı hüquq-mühafizə orqanlarının əməkdaşlığı" mövzusunda sessiya olub. Sessiya Pekin Konsensusunun icrasına həsr olunub. Sessiyada Azərbaycan Çin, Malayziya, Rusiya və İndoneziyanın müvafiq qurumlarının nümayəndələri çıxış edərək öz ölkələrinin təcrübələrini bölüşüblər. Azərbaycanı bu sessiyada təmsil edən Natiq Eyvazov cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində əldə olunmuş təcrübə və qarşıya çıxan çətinliklər barədə danışıb.

Daha sonra "Korrupsiya cinayətlərinin istintaqında texnoloji alətlərin praktiki tətbiqi" mövzusunda sessiya keçirilib. Sessiyada çıxış edən nümayəndəmiz Elşən Orucov süni intellekt və rəqəmsal texnologiyaların istintaq prosesində istifadəsinin üstün və zəif cəhətləri barədə fikirlərini bölüşüb. Sessiyada Qətər, Çili, Sinqapur, Rusiya və Birləşmiş Ərəb Əmirliklərinin nümayəndələri də öz ölkələrinin təcrübələri barədə məlumat veriblər.

Plenar iclas beynəlxalq əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübə mübadiləsi və korrupsiyaya qarşı mübarizədə effektiv yanaşmaların formalaşdırılması baxımından əhəmiyyətli platforma kimi dəyərləndirilib.

Qeyd edək ki, tədbirdə 92 ölkədən 120-dən çox dövlət qurumu, o cümlədən 21 prokurorluq, 53 müstəqil antikorrupsiya qurumu və 16 beynəlxalq təşkilatdan ümumilikdə 300-dən artıq nümayəndə fiziki, 60-dan artıq iştirakçı isə onlayn formatda iştirak edir. Tədbirə müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarını təmsil edən 50-yə yaxın rəhbər vəzifəli şəxslər qatılıb. Əsas mövzusu "Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları" olan Plenar iclasda korrupsiya nəticəsində əldə edilmiş vəsaitlərin müsadirəsi, əldə olunmuş aktivlərin birbaşa bərpası, maliyyə əməliyyatlarında şübhəli əməliyyatların dayandırılması, cinayət prosesində bank hesablarının sürətli dondurulması üzrə beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə ictimai maarifləndirmə və digər altmövzular üzrə panel, sessiya və paralel tədbirlərdə 100-dən artıq çıxış nəzərdə tutulur. Eyni zamanda plenar iclas çərçivəsində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar, habelə ölkəmizin COP29-a sədrliyi ilə bağlı ekoloji hüquqpozmalara qarşı mübarizə ilə bağlı xüsusi sessiya və paralel tədbirlər də keçiriləcək. Bundan başqa, tədbirdə çoxsaylı ikitərəfli görüşlərin keçirilməsi və qarşılıqlı əməkdaşlığa dair memorandumların imzalanması planlaşdırılır.

Beynəlxalq tədbir mayın 23-dək davam edəcək.

# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



Mayın 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.



Tahir Budaqov Lu Meyi Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edib, ölkələrimiz arasındakı konstruktiv əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edərək ona uğurlar arzulayıb.

Təbrikə görə minnətdarlığını bildirən səfir Lu Mey Çinin etibarlı strateji tərəfdaşı olan Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verdikləri, dövlət başçılarının iradələri sayəsində hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyətin həyata keçirildiyi qeyd olunub. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin cari ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması çoxşaxəli işbirliyinin inkişafına əlavə təkan verərək dövlətlərarası münasibətlərin yeni mərhələyə yüksəlməsini şərtləndirib.

Bir-birinin ərazi bütövlüyünə və suverenliyinə birmənalı dəstək verən Azərbaycan ilə Çinin dost və tərəfdaş dövlətlər kimi beynəlxalq müstəvidə əməkdaşlığı xüsusi diqqət mərkəzində saxladıqları qeyd olunub. Avrasiyada təhlükəsizliyin və qarşılıqlı faydalı işbirliyinin gücləndirilməsinin tərəfdarı kimi çıxış edən hər iki ölkənin müxtəlif istiqamətlərdə, o cümlədən ticari-iqtisadi, nəqliyyat-logistika, mədəni, humanitar, "yaşıl enerji" və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduqları vurğulanıb. Görüş əsnasında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası (ÇKP) arasında fəal siyasi dialoq şəraitində sıx təmasların, o cümlədən qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edilib, bu xüsusda 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çinə səfəri zamanı ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası münasibətlərin daha da möhkəmlənməsinə önəmli töhfə olduğu bildirilib. Memorandumdan irəli gələn vəzifələrin bugünədək uğurla yerinə yetirildiyi, partiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli işbirliyinin inamla davam etdirildiyi qeyd olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Şimali Kipr Türk Cümhuriyyətində səfərdədirlər



Yeni Azərbaycan Partiyası, Türkiyənin Ədalət və İnkişaf Partiyası və Şimali Kipr Türk Cümhuriyyətinin Ulusal Birlik Partiyası arasında 14 noyabr 2023-cü ildə imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələrək gənclər arasında təmasların artırılması, birgə fəaliyyət və təcrübə mübadiləsinin təşviqi məqsədilə "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinə start verilib.



İlk olaraq Şimali Kipr Türk Cümhuriyyətində təşkil olunan düşərgəyə Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun başçılıq etdiyi nümayəndə heyəti də qatılıb.

Mayın 18-də hər üç partiyanı təmsil edən gənclər Bellapais monastrı, Girne antik limanı, Girne qalası və Osmanlı Baldöken məzarlığını ziyarət ediblər.

Mayın 19-da Karaoğlanoğlu və Muratağa-Sandallar şəhidlikləri ziyarət olunub, 1974-cü ildə həyata keçirilən "Barış" hərəkatında canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad edilib. Həmin gün gənc partiya nümayəndələri Kipr Sülh Əməliyyatından sonra Şimali Kipr Türk Cümhuriyyəti tərəfindən hərbi zona elan edilən Maraş bölgəsini də ziyarət edib, "19 May-Atatürkü Anma, Gənclik və İdman Bayramı" münasibətilə keçirilən təntənəli yürüşə qatılıblar.

***"Azərbaycan"***

# Avropa Dövlət Prokurorluğunun Baş prokurorunun müavini Petr Klementin Azərbaycanda səfərdədir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq edir və bir çox qlobal və regional təşəbbüslərdə fəal iştirak edir. Eyni zamanda beynəlxalq münasibətlərin möhkəmləndirilməsi məqsədilə tərəfdaş qurumlarla birgə kompleks tədbirlər həyata keçirilir.

Bu çərçivədə, Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GLOBE NETWORK) birgə təşkilatçılığı ilə 19-23 may tarixlərində Bakı şəhərində sözügedən beynəlxalq təşkilatın Altıncı Plenar İclas və İdarəetmə Komitəsinin Onuncu Görüşü baş tutur.

Tədbir çərçivəsində, beynəlxalq təşkilatlar və xarici dövlətlərin nümayəndə heyətləri ilə bir sıra görüşlər təşkil olunub.

Mayın 20-də Baş prokuror Kamran Əliyev, Avropa Dövlət Prokurorluğunun Baş Prokurorunun müavini Petr Klementinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror görüş zamanı qanunun aliliyinin və ədalətin təmin edilməsində Avropa İttifaqı ilə Azərbaycan arasında mövcud əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, həmçinin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Avropa Prokurorluğu arasında əlaqə mexanizminin yaradılmasının və gücləndirilməsinin vacibliyini qeyd edib.

Petr Klementin isə, görüşdə Azərbaycanda həyata keçirilən hüquqi islahatları və bu islahatların beynəlxalq hüquq və ədalət prinsipləri ilə uyğunluğunu müsbət qiymətləndirib. O, həmçinin, Azərbaycanın hüquqi sisteminin inkişafı istiqamətində atdığı addımları alqışlayıb və Avropa Prokurorluğunun bu islahatları dəstəkləməyə davam edəcəyini bildirib.

Görüşdə bütün dünyada antikorrupsiya hüquq-mühafizə orqanları arasında birbaşa əməkdaşlığın gücləndirilməsi məsələsi də müzakirə edilib. Kamran Əliyev, GLOBE Şəbəkəsinin bu sahədəki əhəmiyyətini vurğulayıb və Azərbaycanın bu şəbəkə ilə əməkdaşlığını daha da inkişaf etdirməyə maraqlı olduğunu bildirib.

Bundan əlavə, hüquqi əməkdaşlığın genişləndirilməsi, cinayətkarlıqla mübarizə sahəsində bilik və təcrübə mübadiləsi, habelə beynəlxalq hüquq normalarına uyğun fəaliyyətin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Görüş Azərbaycan ilə Avropa İttifaqı arasında hüquqi əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm addım olub.

***"Azərbaycan"***

# Baş Prokuror Kamran Əliyev bir sıra ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən hüquqi və institusional islahatlar, xüsusilə şəffaflıq, hesabatlılıq və korrupsiyaya qarşı mübarizə sahəsində atılan məqsədyönlü addımlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir. Bu kontekstdə Azərbaycan Prokurorluğu beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübə mübadiləsinin təşviqi istiqamətində fəal siyasət həyata keçirir.



19-23 may tarixlərində Bakı şəhərində keçirilən BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü çərçivəsində, mayın 20-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bir sıra ölkələrin hüquq-mühafizə orqanlarını təmsil edən nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib.

Görüşlərdə Çex Respublikasının Təhlükəsizlik Qüvvələri Baş Müfəttişliyinin direktoru Vit Hendrix, Nepal Federativ Demokratik Respublikasının Səlahiyyətlərin Sui-istifadəsinin Araşdırılması üzrə Komissiyasının komissarı Hari Paudel və Liviya Dövlətinin İnzibati Nəzarət Orqanının sədri Abdulla Qadirbohun iştirak ediblər.

Baş prokuror Kamran Əliyev keçirilən görüşlərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların mahiyyəti barədə ətraflı məlumat verib, xüsusilə korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanlarının institusional fəaliyyəti, tətbiq edilən innovativ idarəetmə mexanizmləri və beynəlxalq tərəfdaşlıq təşəbbüsləri barədə danışıb. O, həmçinin GLOBE Şəbəkəsinin transmilli korrupsiya ilə mübarizədə mühüm beynəlxalq platforma olduğunu vurğulayaraq, Azərbaycanın bu əməkdaşlıq çərçivəsində daha fəal iştiraka maraqlı olduğunu bildirib.

Qonaqlar Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək, xüsusilə hüquqi islahatların ardıcıllığı və prokurorluq orqanlarının fəaliyyətində müşahidə edilən inkişaf dinamikasını müsbət nümunə kimi dəyərləndiriblər.

Görüşlər zamanı qarşılıqlı təcrübə və informasiya mübadiləsinin gücləndirilməsi, hüquq-mühafizə orqanları arasında birbaşa əlaqələrin inkişafı və gələcək əməkdaşlığın dərinləşdirilməsi imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

İkitərəfli danışıqlar, həmçinin regional və beynəlxalq səviyyədə birgə təşəbbüslərin həyata keçirilməsi, o cümlədən qlobal antikorrupsiya səylərində birgə iştirakla bağlı məsələlərin müzakirəsi ilə müşayiət olunub. Nümayəndə heyətləri Azərbaycan Prokurorluğunun şəffaflıq, etik davranış və hesabatlılıq prinsiplərinin təşviqi sahəsində qazandığı nailiyyətlərə xüsusi maraq göstərərək, bu təcrübədən faydalanmaqda maraqlı olduqlarını ifadə ediblər

***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

**Azərbaycanın xarici siyasətinin önəmli istiqamətlərindən biri də Mərkəzi və Şərqi Avropa ölkələri ilə, xüsusilə Macarıstanla əlaqələrin möhkəmləndirilməsidir. Bu, yalnız siyasi və iqtisadi sahələrdə deyil, həm də enerji, təhlükəsizlik və regional əməkdaşlıq sahələrində strateji tərəfdaşlığın dərinləşməsini nəzərdə tutur. Avropa İttifaqının üzvü olan Macarıstan Azərbaycanın Avropa ilə əlaqələrinin inkişafında mühüm rol oynayır. AZƏRTAC Azərbaycanla Macarıstan arasında mövcud olan əməkdaşlığın müxtəlif istiqamətlərini və son illərdə imzalanan mühüm sənədlərin bu əlaqələrə olan təsirini nəzərdən keçirir.**





# Azərbaycan-Macarıstan strateji əməkdaşlığının regional perspektivləri



## Azərbaycan ilə Macarıstan arasında siyasi və iqtisadi əməkdaşlığın dərinləşməsi

1992-ci ildən etibarən qurulan Azərbaycan-Macarıstan diplomatik əlaqələri son onilliklər ərzində dərin və çoxşaxəli tərəfdaşlığa çevrilib. Əlaqələrin inkişafında 2014-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə mühüm rol oynayıb. Bu proses 2023-cü ilin yanvarında imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ilə daha da güclənib və ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoymasına səbəb olub. Sənəd iki ölkə arasında təkcə ikitərəfli münasibətlərin deyil, həm də regional və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsini hədəfləyən kompleks çərçivə təqdim edir.

Tərəflər bu sənəd ilə qarşılıqlı hörmət, suverenlik və bərabərlik prinsiplərinə əsaslanan uzunmüddətli əməkdaşlığa sadiq olduqlarını bəyan ediblər. Siyasi sahədə yüksəksəviyyəli dialoqlar, parlamentlərarası münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək bu tərəfdaşlığın təməl sütunlarını təşkil edir. Eyni zamanda sənəd enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi sahəsində ortaq maraqları vurğulayaraq "Cənub qaz dəhlizi" (CQD) layihəsinin əhəmiyyətini ön plana çəkir. Macarıstanın CQD-nin genişləndirilməsi və bu təşəbbüsə qoşulmaq niyyəti Azərbaycanın Avropanın enerji təminatında artan rolunu bir daha təsdiq edir.

Bununla yanaşı, sənəddə qeyd olunur ki, Azərbaycan ilə Macarıstan strateji dialoqu davam etdirmək, ticarət, investisiya, nəqliyyat, təhsil və humanitar sahələrdə əməkdaşlıq imkanlarını genişləndirmək niyyətindədirlər. Tərəflər arasında imzalanmış bu bəyannamə, ümumilikdə, Azərbaycan-Macarıstan əlaqələrinin daha da strateji və institusional xarakter almasının göstəricisidir.

Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə səmimi dostluq münasibətləri, iki ölkə arasında müntəzəm surətdə həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti Macarıstanda 2023-cü ilin yanvar ayında rəsmi, avqust ayında işgüzar, Macarıstanın Baş naziri Azərbaycanda 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında işgüzar səfərlərdə olublar.

Viktor Orbanın Türk Dövlətləri Təşkilatı (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak üçün ötən il Şuşaya səfəri həmin dövrdə Macarıstanın Avropa İttifaqı (Aİ) Şurasına sədrlik etməsi, eləcə də Aİ-yə üzv ölkələrin dövlət və hökumət başçıları səviyyəsində Şuşaya ilk səfər olması baxımından mühüm əhəmiyyət kəsb edib. Eyni zamanda Azərbaycan ilə "xüsusi münasibətlər" nəzərə alınaraq, Macarıstan COP29-da belə tədbirlərə ənənəvi yanaşmaya uyğun olaraq ölkə prezidenti səviyyəsində deyil, istisna hal kimi baş nazir səviyyəsində təmsil olunub.

İkitərəfli əməkdaşlığın möhkəmlənməsi istiqamətində mühüm addımlardan biri də Azərbaycan-Macarıstan Strateji Dialoqunun təsis edilməsidir. Bu çərçivədə ilk iclas 2023-cü ilin sentyabrında Budapeştdə, ikinci iclas isə 2024-cü ilin iyununda Bakıda baş tutub.

Hər iki ölkənin parlamentlərarası əlaqələri də uğurla inkişaf edir. Milli Məclisin Sədri Sahibə Qafarova Macarıstanda 2021-ci ildə rəsmi, 2023-cü ildə isə işgüzar səfərlərdə olub. Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu və Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərinin qarşılıqlı səfərləri müntəzəm xarakter daşıyır. Beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlıq edilir.

Yeni Azərbaycan Partiyası (YAP) ilə hakim Fides - Macarıstan Vətəndaş Birliyi Partiyası (sədri Baş nazir Viktor Orbandır) arasında səmərəli əməkdaşlıq mövcuddur. Ötən il YAP-ın təşkilatçılığı ilə Şuşada keçirilən "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransda Fides - Macarıstan Vətəndaş Birliyi Partiyasının üzvü, Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Attila Tilki çıxış edib.

Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də yaxından əməkdaşlıq edir, bir-birinin təşəbbüslərini dəstəkləyirlər.

Macarıstan Avropa İttifaqı, Avropa Şurası və digər Avropa strukturlarında ölkəmizin maraqlarını hər zaman müdafiə edir.

Türk Dövlətləri Təşkilatının Budapeştdəki nümayəndəliyinin fəaliyyəti və Macarıstanın bu təşkilatda müşahidəçi statusu da mədəni və siyasi əməkdaşlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Baş nazir Viktor Orban, xarici işlər və ticarət naziri Peter Siyyarto dəfələrlə bəyan ediblər ki, Macarıstan həm Avropanın ən Şərq, həm də türk dünyasının ən Qərb dövlətidir.

## Enerji əməkdaşlığı və Avropanın enerji təhlükəsizliyi

Macarıstan Azərbaycanı enerji sahəsində etibarlı və strateji tərəfdaş olaraq görür və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində ölkəmizin vacib rolunu yüksək qiymətləndirir. Azərbaycanın enerji potensialı, xüsusilə təbii qaz və bərpaolunan enerji sahələrindəki uğurları, Macarıstanın enerji təminatını şaxələndirmək məqsədilə ölkəmizin layihələrinə dəstəyini daha da artırır. Bu əməkdaşlıq həmçinin "Cənub qaz dəhlizi" layihəsinin uğurlu həyata keçirilməsi ilə Avropa bazarlarına daha çox enerji təchizatının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Macarıstanın enerji şaxələndirilməsinə dair maraqları Azərbaycanla strateji əməkdaşlığını daha da möhkəmləndirir və ölkələr arasında qarşılıqlı faydalı layihələrin həyata keçirilməsinə şərait yaradır. Azərbaycan xüsusilə Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrindən Avropaya enerji ixracını artırmaqla bu qitənin enerji təminatında önəmli rol oynamağa davam edir. Bu kontekstdə "yaşıl enerji" sahəsində imzalanmış müqavilələr və layihələr xüsusilə diqqət çəkir.

Buxarestdə Azərbaycan, Macarıstan, Rumıniya və Gürcüstan hökumətlərinin "yaşıl enerji" sahəsində imzaladıqları strateji tərəfdaşlıq sazişi ölkələrimiz arasında enerji ötürülməsini və yeni enerji layihələrinin həyata keçirilməsini nəzərdə tutur. Bu təşəbbüs həmçinin Xəzər dənizinin böyük külək enerjisi potensialının Avropa bazarlarına daxil edilməsinə imkan verəcək və Avropanın enerji təhlükəsizliyini daha da şaxələndirəcək. Bu layihələr, xüsusən Qara dənizdən keçəcək sualtı elektrik enerjisi xəttinin çəkilməsi Avropa ilə Azərbaycan arasında enerji daşımalarını artıracaq və bərpaolunan enerji resurslarının istifadəsini təşviq edəcək.

Beləliklə, enerji sahəsindəki bu yeni əməkdaşlıq Azərbaycanın Avropa İttifaqı ilə daha yaxın əlaqələr qurmasına və qlobal enerji təhlükəsizliyinə olan töhfəsini artırmasına imkan yaradıb. Bu, yalnız iqtisadi deyil, həm də geostrateji baxımdan önəmli addımlardır ki, Avropanın enerji bazarını daha müxtəlif və dayanıqlı etmək məqsədini güdür.

## İki ölkə arasında iqtisadi əməkdaşlıq və investisiyalar

Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlıq son illərdə sürətlə artan və inkişaf edən bir sahə olaraq diqqət çəkir. Hər iki ölkə xüsusilə enerji, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrində qarşılıqlı faydalı əməkdaşlıq edir. Azərbaycan təbii resursları, müasir nəqliyyat infrastrukturu və strateji coğrafi mövqeyi ilə Macarıstanın iqtisadi maraqlarına uyğun olan müxtəlif sahələrdə təkliflər irəli sürür.

İki ölkə arasındakı iqtisadi əlaqələr, strateji tərəfdaşlıq, dostluq qarşılıqlı hörmətə əsaslanır və hər il daha da möhkəmlənir. 2024-cü ilin sonuna olan göstəricilərə əsasən, ölkələrimiz arasındakı ticarət dövriyyəsində 29 faiz artım müşahidə edilib ki, bu da əlaqələrin möhkəmlənməsinin və inkişafının əhəmiyyətli göstəricisidir. Bu artım Azərbaycanın Avropa bazarlarında daha çox yer tutmasının və Macarıstanla ticarət əlaqələrinin genişlənməsinin nəticəsidir.

Bundan başqa, ötən il Macarıstandan Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 1,018 milyard ABŞ dolları təşkil edib. Bu, Macarıstanın Azərbaycanın iqtisadiyyatına olan marağını və hər iki ölkənin qarşılıqlı investisiya əlaqələrinin inkişafını göstərir. Azərbaycanlı investorlar isə Macarıstanda kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə böyük sərmayələr qoyurlar və bu da iqtisadi tərəfdaşlığı daha da gücləndirir.

Macarıstanın iqtisadiyyatına yönəldilən bu yatırımlar, sadəcə, maddi baxımdan deyil, həm də müxtəlif sahələrdə texnoloji inkişafın və yeniliklərin gətirilməsi baxımından vacibdir. Bu əməkdaşlıq yalnız iqtisadi artımı təmin etmir, eyni zamanda ölkələr arasında strateji əlaqələrin dərinləşməsinə və qarşılıqlı fayda əsasında yeni layihələrin həyata keçirilməsinə imkan yaradır.

Macarıstan davamlı olaraq Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləyib. Macarıstan şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərində iştirak etməkdə maraqlıdır. "KESZ" şirkətlər qrupu Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulmasını həyata keçirir. Macarıstan hökumətinin vəsaiti hesabına Soltanlı kəndində məktəbəqədər və ümumi təhsil müəssisələri üçün binalar inşa ediləcək. Bakıda keçirilən Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Karabakh" sərgilərində ənənəvi olaraq Macarıstan şirkətləri iştirak edirlər.

Son illərdə ikitərəfli iqtisadi əlaqələrin inkişafı istiqamətində də böyük uğurlara imza atılıb. Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın iclasları illik əsasda keçirilir. Hər iki paytaxtda müntəzəm şəkildə birgə biznes-forumlar təşkil olunur. Birgə komissiyanın növbəti 11-ci iclasının 2025-ci ilin iyun ayında Budapeştdə keçirilməsi nəzərdə tutulub.

Enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. "MOL" şirkətlər qrupu "Azəri-Çıraq-Günəşli" yatağında 9.57 faiz, Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsində isə 8.9 faiz paya sahibdir. 30 yanvar 2023-cü ildə Budapeştdə imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında təbii qaz əməkdaşlığı haqqında Anlaşma Memorandumu" bu istiqamətdə növbəti uğurlar üçün zəmin yaradıb. 2023-cü il iyunun 2-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə "MVM" şirkətlər qrupu arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə imzalanıb. 2024-cü il iyunun 5-də "MVM" şirkətlər qrupu ilə "Şahdəniz" layihəsində pay alışı, sentyabrın 20-də isə "MOL" şirkətlər qrupu ilə Şamaxı-Qobustan sahəsində kəşfiyyat, işlənmə və hasilatla bağlı sənədlər imzalanıb.

"Həmrəylik Halqası" təşəbbüsü çərçivəsində 25 aprel 2023-cü ildə Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan), "Eustream" (Slovakiya) və SOCAR arasında anlaşma memorandumu imzalanıb.

Macarıstan hökuməti "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" əsasında "yaşıl enerji" dəhlizinin yaradılmasına dəstək verir.

Sənaye sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılıb. 10 iyul 2023-cü ildə "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə Macarıstanın "Hell Energy" şirkəti arasında birgə iştirak müqaviləsi, iyulun 31-də isə "Scandens Pharmaceutical Industries Ltd" MMC ilə "Gedeon Richter" şirkəti arasında Azərbaycanda dərman vasitələrinin birgə istehsalı haqqında müqavilə imzalanıb. 24 aprel 2025-ci ildə "Azərkosmos" ilə "4iG Space and Defence Ltd." şirkəti arasında anlaşma memorandumu imzalanıb. Həmçinin 2022-ci ilin yanvar ayında Ələt Azad İqtisadi Zonası ilə Macarıstan İxracın Təşviqi Agentliyi arasında anlaşma memorandumu imzalanıb.

Kənd təsərrüfatı sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün də geniş imkanlar mövcuddur. 2023-cü və 2024-cü illərdə Azərbaycanın və Macarıstanın kənd təsərrüfatı nazirlərinin qarşılıqlı səfərləri həyata keçirilib.

Hərbi və müdafiə sənayesi sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi qarşılıqlı maraq kəsb edir. 2023-cü və 2024-cü illərdə Azərbaycanın və Macarıstanın müdafiə nazirləri qarşılıqlı səfərləri həyata keçiriliblər. 24-26 sentyabr 2024-cü ildə Bakıda keçirilən "ADEX-2024" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisində Macarıstan milli pavilyonla təmsil olunub.

2023-cü il üçün Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı", Vesprem şəhərinin isə "Avropanın mədəniyyət paytaxtı" elan olunması ilə əlaqədar həmin il yanvarın 30-da "Azərbaycan Respublikasının Şuşa şəhəri və Macarıstanın Vesprem şəhəri arasında dostluq əlaqələrinin yaradılması və mədəniyyət, turizm, şəhərsalma, elm, iqtisadiyyat və ictimai həyatın digər sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

İki ölkə arasında humanitar sahədə əməkdaşlığın hazırkı səviyyəsi məmnunluq doğurur. Macarıstan hökumətinin maliyyə dəstəyi ilə "Stipendium Hungaricum" təqaüd proqramı çərçivəsində hər il azərbaycanlı tələbələrə 200 təqaüd ayrılır. Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində macar tələbələrə də təhsil təqaüdləri ayrılır. Hazırda Macarıstanda 700-ə qədər azərbaycanlı tələbə təhsil alır.

2023-cü il oktyabrın 19-da Macarıstanın Lakitelek şəhərində yerləşən Hunqarikum parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin büstünün açılışı olub.

Azərbaycan Dillər Universitetində Macar dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir. 19 may 2025-ci ildə Macarıstanın aparıcı ali məktəblərindən biri olan Eötvös Lorand Universitetində (ELTE) Azərbaycan dili və mədəniyyəti mərkəzi açılıb.

İki paytaxt arasında "Wizz Air" aviaşirkəti tərəfindən həyata keçirilən birbaşa müntəzəm uçuşlar turizm sahəsində əlaqələrin genişlənməsinə töhfə verir.

TDT-də Azərbaycan Prezidentinin təşəbbüsü ilə qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi ənənəsi formalaşıb. 2024-cü ilin iyul ayında təşkil olunmuş ilk Şuşa qeyri-rəsmi Zirvə görüşündən növbəti görüş hazırda dünən və bu gün Budapeşt şəhərində keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev də tədbirdə iştirak edir.

Nəticə etibarilə Azərbaycan və Macarıstan arasında əməkdaşlıq yalnız iqtisadi əlaqələrlə məhdudlaşmır. Bu həm də iki ölkə arasında dostluq əlaqələrinin, qarşılıqlı anlaşma və əməkdaşlıq ruhunun daha da möhkəmlənməsinə səbəb olur. İki ölkə qarşılıqlı faydalı layihələr və investisiyalar əsasında gələcəkdə daha da sıx əməkdaşlıq etməyi hədəfləyir. Bu proses həmçinin bölgələrarası əlaqələrin güclənməsinə və beynəlxalq iqtisadi sistemdə daha böyük mövqe tutmalarına şərait yaradacaq.

## Macarıstanın suverenliyin qorunması aktı və regional təhlükəsizlik

Macarıstanın 2023-cü ilin dekabrında qəbul etdiyi Suverenliyin Qorunması Aktı ölkənin siyasi proseslərinə xarici təsirlərin qarşısını almağı hədəfləyir. Qanun çərçivəsində yaradılmış Suverenliyin Müdafiəsi İdarəsi (SPO) xaricdən maliyyələşən fərdlər və təşkilatlarla bağlı araşdırmalar aparmaq, maliyyə məlumatları tələb etmək və zəruri hallarda bu qurumları ictimai şəkildə ifşa etmək səlahiyyətinə malikdir. Akt həmçinin seçki dövründə siyasi partiyaların və namizədlərin müəyyən xarici ianələrin qəbul olunmasını qadağan edir və pozuntulara qarşı cinayət məsuliyyəti nəzərdə tutur. Bu qanun Macarıstan cəmiyyətində və beynəlxalq arenada qarışıq reaksiyalar doğurub - bəziləri bunu suverenliyin qorunması kimi qiymətləndirirsə, digərləri vətəndaş cəmiyyətinə təsirlərindən narahatlıq bildirirlər.

Bu aktın tətbiqi Azərbaycan kontekstində maraqlı müqayisə imkanı yaradır. Hər iki ölkənin strateji tərəfdaşlığı fonunda Macarıstanın daxili hüquqi siyasətində suverenlik və milli təhlükəsizlik məsələlərinin aktuallığı, Azərbaycanın da xarici təsirlərdən müdafiə və daxili sabitliyin qorunması ilə bağlı bənzər yanaşmalar sərgilədiyini göstərir. Bu baxımdan hər iki dövlətin milli maraqları əsasında hüquqi və siyasi müstəvidə oxşar mövqelər tutması onların siyasi əməkdaşlığını gücləndirən amillərdən biridir.

## Əməkdaşlığın perspektivləri və ya gələcək imkanlar

Azərbaycanla Macarıstan arasındakı münasibətlər son illər ərzində əhəmiyyətli dərəcədə inkişaf edib və hər iki tərəf əməkdaşlıq sahələrini daha da genişləndirməkdə maraqlıdır. Genişləndirilmiş strateji tərəfdaşlıq və enerji sahəsindəki əməkdaşlıq regional təhlükəsizlik, eyni zamanda, iqtisadi inkişaf baxımından mühüm perspektivlər təqdim edir. Eyni zamanda Macarıstanın daxili siyasətindəki dəyişikliklər və Avropa İttifaqı ilə əlaqələr gələcəkdə bu əməkdaşlığa əlavə imkanlar və bəzi çətinliklər gətirə bilər.

Ötən il fevralın 14-də Prezident İlham Əliyevin andiçmə mərasimində çıxışı zamanı söylədiyi "...ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri yeni dövrdə xarici siyasətimizin yol xəritəsi rolunu oynayır.

6 iyul 2024-cü ildə Şuşada keçirilmiş ilk qeyri-rəsmi Zirvə görüşünün də TDT çərçivəsində əməkdaşlığa ciddi təkan verdiyinə və təşkilatın funksionallığının keyfiyyətcə yeni müstəviyə yüksəlməsinə yönəlmiş Qarabağ Bəyannaməsinin qəbul edilməsi tarixi əhəmiyyət kəsb edir.

TDT-nin beynəlxalq nüfuzunun gücləndirilməsi və təşkilatın daha da funksionallaşdırılması istiqamətində Azərbaycan tərəfi katibliyin gücləndirilməsi, kadr potensialının artırılması ilə bağlı konkret təkliflərlə çıxış edib.

Azərbaycan tərəfindən TDT Katibliyinin hesabına 2 milyon ABŞ dolları məbləğində əlavə vəsait köçürülüb. Sözügedən vəsait həm təşkilatın işinə, həm də büdcənin artırılması məsələsinin nəzərdən keçirilməsi üçün digər üzvləri stimullaşdıracağına öz töhfəsini verəcək.

Əminliklə deyə bilərik ki, ümumilikdə Azərbaycan-Macarıstan əlaqələri hər iki ölkənin strateji məqsədlərinə xidmət edəcək şəkildə inkişafdadır və beynəlxalq arenada yeni tərəfdaşlıq modellərinin yaranmasına səbəb ola bilər. Bu əməkdaşlıq yalnız iki ölkənin təhlükəsizliyində deyil, həm də geniş regional və qlobal kontekstdə, eyni zamanda enerji məsələlərinin həllində əhəmiyyətli rol oynayır.




# Konstitusiya və Suverenlik İli 2025



# Azərbaycan Konstitusiyası - qüdrətli dövlətin və firavan həyatın təminatçısı

**Bu il biz Azərbaycan dövlətçiliyi və xalqı üçün xüsusi əhəmiyyətə malik tarixi hadisələrin növbəti ildönümünü qeyd edəcəyik. 30 il əvvəl - 12 noyabr 1995-ci ildə ilk dəfə müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu ümumxalq səsverməsi ilə qəbul olundu. 5 il əvvəl isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz bütün Azərbaycan ərazisində suveren hüquqlarımızı tam bərpa etdi.**



"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən, xalqımız 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa etmişdir. Müstəqilliyimiz elə çətin və mürəkkəb bir vəziyyətdə bərpa olunmuşdur ki, biz bu tarixi hadisənin sevincini yaşaya bilməmişdik. Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Ümummilli Lider Azərbaycandakı vəziyyəti, onun mürəkkəbliyini və çətinliyini çox görürdü. O, çox yaxşı anlayırdı ki, öz həyatını böyük təhlükəyə atır. Lakin buna baxmayaraq, bu dahi insan şərəfli tarixi missiyanı öz üzərinə götürdü. Ulu Öndər Azərbaycanı vətəndaş müharibəsindən, daxili separatizmdən, iqtisadi və siyasi böhrandan xilas etdi. Cəmiyyətin bütün təbəqələri əmin idilər ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Onun başladığı siyasəti Prezident, Ali Baş Komandan İlham Əliyev çox böyük əzmlə, qətiyyətli siyasi iradə göstərərək ölkəmizin beynəlxalq nüfuzunu artırdı. Azərbaycan XXI əsrdə öz ərazi bütövlüyünü və suveren hüquqlarını təmin edən dövlət olaraq tarixə düşdü.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi müstəqillik tariximizin ən vacib hadisələrindən biri olmaqla dövlətçiliyimizin möhkəmləndirilməsi, o cümlədən ölkəmizin dünya birliyində nüfuzunun artırılması baxımından əhəmiyyətli ictimai-siyasi hadisə idi. Heydər Əliyevin tarixi xidmətlərindən biri də ilk Konstitusiyanın hazırlanması idi. Ulu Öndər deyirdi: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq".

Məlumdur ki, Konstitusiya dövlət hakimiyyətinin təşkilinin əsas prinsiplərini, insan və vətəndaş hüquq və azadlıqlarını, hakimiyyətlərin bölgüsü və digər demokratik dəyərləri özündə ehtiva edərək, həmçinin olduqca mühüm ideoloji funksiyanı yerinə yetirir. Bu baxımdan 1991-ci ildə ölkəmizdə dövlət müstəqilliyi bərpa edildikdən sonra hüquqi dövlət quruculuğu üçün mühüm amillərdən biri demokratik dəyərlərə əsaslanan yeni Konstitusiyanın qəbul edilməsi idi. Lakin məlum olduğu kimi, müstəqilliyin ilk illərində ölkədə mövcud olan siyasi qeyri-sabitlik, xaos və vahid siyasi iradənin mövcud olmaması bu mürəkkəb və məsuliyyətli vəzifənin reallaşdırılmasını qeyri-mümkün etmişdi. Məhz belə çətin tarixi dövrdə xalqın təkidli istəyi və tələbi ilə hakimiyyətə qayıdışından sonra Ümummilli Lider Heydər Əliyev öz müdrik siyasəti və tarixi uzaqgörənliyi ilə insanları milli dövlətçilik ideyası ətrafında birləşdirməyə nail oldu. Bununla da dövlət və cəmiyyət həyatının bir çox sahəsini əhatə edən genişmiqyaslı islahatlar həyata keçirilməyə başlandı. O zamanlar ölkədə mövcud olan qanunvericilik sistemi hüquqi və demokratik dövlət ideyasının tələblərinə, qanunun aliliyinin təmin olunmasına uyğun olmamaqla, insan hüquq və azadlıqlarının müdafiəsinə kifayət qədər təminat vermirdi. Bu səbəbdən də öncə qanunvericilik sahəsində köklü islahatların aparılması artıq bir zərurətə çevrilmişdir. Əlbəttə ki, bu islahatları ölkənin Əsas Qanununu qəbul etmədən reallaşdırmaq qeyri-mümkün idi. Məhz bu səbəbdən qarşıda duran ən vacib məsələlərdən biri məhz yeni Konstitusiya layihəsinin hazırlanması idi.

Beləliklə, Milli Məclisin 2 may 1995-ci il tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq olundu. Ulu Öndər Konstitusiya layihəsini hazırlayan komissiyanın fəaliyyət göstərdiyi zaman Əsas Qanunun layihəsinə dair öz dəyərli fikirlərini bildirib və tövsiyələrini verib, hər bir müddəanı şəxsən nəzərdən keçirərək onun qəbul olunmasını təmin etmək üçün böyük əmək sərf etmişdir. Beləliklə, yeni Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddə, preambula və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilib, 27 noyabr 1995-ci ildən isə qüvvəyə minib.

Qeyd etmək lazımdır ki, Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu müddəa birbaşa onun göstəricisidir ki, insan amili, onun hüquq və azadlıqları ölkə Konstitusiyasının əsas diqqət mərkəzində dayanır. Azərbaycan Respublikasının Konstitusiyasında ailənin mahiyyəti, ailə üzvlərinin vəzifə və hüquqları xüsusi maddələrlə müəyyən edilmişdir. Həmin sənədin 17-ci maddəsində göstərilir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Bu bir daha ailə institutunun dövlətimiz üçün nə qədər mühüm əhəmiyyət kəsb etdiyinin sübutudur. Dövlətimizin əsas sənədində ümumbəşəri dəyərlərlə milli dəyərlər harmoniya şəklində təqdim olunur. Yəni biz qanunun aliliyi prinsipinə və milli adət-ənənələrimizə eyni münasibət bəsləyirik. Konstitusiyanın 34-cü maddəsində qeyd olunur ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

Digər tərəfdən isə valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar. Yəni valideynə hörmət, qayğı bu, bizim mədəniyyətimizdir. Bu sənədin müddəaları əsas tutulmaqla 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması ilə ailə üzvlərinin digər hüquq və vəzifələri təsbit olunmuşdur. Həmin məcəllənin 29-cu maddəsində qeyd olunur ki, Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər. Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar.

"Ailə bizim cəmiyyətimizin əsas sütunudur" - Prezident İlham Əliyevin bu fikirləri Azərbaycan ailə institutunun nə qədər önəmli olduğunu bir daha vurğulayır. Ailə yalnız bioloji bağlarla deyil, mənəvi dəyərlərlə, sevgi, qayğı və qarşılıqlı anlayışla formalaşan bir sistemdir. Xüsusilə uşaqların və gənclərin düzgün yetişməsində valideynlərin rolu əvəzolunmazdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeddinci çağırış Milli Məclisin ilk iclasında ailə dəyərlərinin qorunması və tərbiyənin əhəmiyyəti ilə bağlı səsləndirdiyi fikirlər dövlətimizin ailə siyasətinin prioritet istiqamətlərini bir daha təsdiqləyir. Ailə cəmiyyətin təməl daşı, milli kimliyimizin və mənəvi dəyərlərimizin daşıyıcısıdır. Uşaqların sağlam ruhda böyüməsi, milli-mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişməsi üçün ailədə və məktəbdə aldıqları tərbiyə həlledici rol oynayır. Bununla yanaşı, cəmiyyətin ümumi mənəvi mühiti də bu prosesə birbaşa təsir göstərir. Dövlət başçısının da qeyd etdiyi kimi, bu məsələ daim diqqət mərkəzində saxlanmalı və müvafiq qurumlar üzərlərinə düşən məsuliyyəti dərk etməlidirlər.

Azərbaycan Respublikasının ali hüquqi sənədi olan Konstitusiyaya əsasən, dövlət hər bir insanın irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Azərbaycan Respublikasının Konstitusiyası qadın və kişilərin bərabər hüquqlarını, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnu təmin edir. Məhz Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında qadınların kişilərlə bərabərhüquqlu olması təsdiq edilib və qeyd edilib ki, ölkədə kişi ilə qadının eyni hüquq və azadlıqları vardır. Bununla da demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazası yaradılıb. Bu isə öz növbəsində ictimai-siyasi həyatımızın bütün sferalarında gender siyasətinin güclənməsinə gətirib çıxarmışdır. Qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrlə (Ailə, Mülki, Əmək, Cinayət, İnzibati Xətalar və digər) təsbit olunmuşdur. Milli qanunvericiliyin əsasını təşkil edən Konstitusiyada qadın və kişilərin bərabər hüquqları təmin edilir. 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında", 2000-ci ildə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamları, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" (2006-cı il), "Məişət zorakılığının qarşısının alınması haqqında" (2010-cu il) Azərbaycan Respublikası qanunları qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. 2011-ci ildə Ailə Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. 2014-cü ildə tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrimizin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir (Qanun 1 iyun 2015-ci ildən qüvvəyə minib). Qeyd etmək lazımdır ki, bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verməyə başladı. Eyni zamanda bir çox stereotipin qırılmasına səbəb olmuşdur.

Xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi önəmli məsələlərdən biri idi. Ailədə sağlam uşaqların doğulması, eləcə də narahatlıq doğuran məsələlərdən biri olan qan qohumluğunun qarşısının alınması istiqamətində göstərişlər verir və ən müxtəlif səviyyələrdə müzakirələr aparırdı. Ulu Öndərin imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" qanunu xüsusilə qeyd etmək lazımdır. Həmçinin Konstitusiyanın qəbul olunması uşaqların sağlamlığı, onların yaxşı təhsil və təlim-tərbiyə alması, ailə mühitində böyüməsi, hüquqlarının müdafiəsi istiqamətində güclü qanunvericilik bazasının formalaşmasına səbəb oldu.

Əlbəttə ki, ölkədə hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişdikcə, eyni zamanda ictimai münasibətlər inkişaf etdikcə Konstitusiyanın da müəyyən müddəalarının təkmilləşdirilməsi, müvafiq əlavələrin və dəyişikliklərin edilməsi zərurəti meydana çıxır. Məhz belə zərurətdən irəli gələrək 24 avqust 2002-ci ildə, 18 mart 2009-cu ildə və 26 sentyabr 2016-cı ildə keçirilmiş referendumlar nəticəsində Əsas Qanuna bir sıra mühüm əlavələr və dəyişikliklər edilib. Müasir çağırışları və yenilikləri özündə ehtiva edən Konstitusiya islahatları demokratik dəyərlərin bərqərar olması, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, ölkəmizdə gedən demokratikləşmə proseslərinin daha da dərinləşməsi kimi məqsədlərə xidmət edir. Xüsusilə vurğulamaq lazımdır ki, bu islahatlar ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində də öz müsbət nəticələrini vermişdir. Ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulması üçün mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan peşə, vəzifə və iş yeri azaldılaraq 204 müəyyən edilmişdir. Əvvəllər onların sayı 674 idi. Eyni zamanda qadağan edilən bu peşə, vəzifə və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq edilir. Bu dəyişiklik əmək münasibətlərinin və məşğulluq imkanlarının gender bərabərliyi prinsipləri əsasında qurulmasına mühüm töhfədir. Həmçinin ölkə üzrə qadınların orta əməkhaqqının kişilərin orta əməkhaqqına daha yüksək templə yaxınlaşması təmin ediləcəkdir. Və statistik göstəricilərdən də bunu görmək mümkündür. 2020-ci ildə qadınların orta əməkhaqqı kişilərin orta əməkhaqqının 63,3 faizini təşkil edirdisə, 2023-cü ildə isə 68,8 faizini təşkil etmişdir. Bununla yanaşı, qadınların kişilərlə bərabər qaydada gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə cəlb edilmə və istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə onların yazılı razılığı ilə icazə verilir. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa təklif olunan dəyişikliyə əsasən, qadınlarla yanaşı, kişilər də uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququna malikdirlər. Əmək pensiyalarının tətbiqində gender bərabərliyinin təmin olunması həm də vətəndaşlarımızın konstitusion hüquqlarının müdafiəsi deməkdir. 2009-cu ildən Əmək Məcəlləsinə edilən dəyişikliyə görə, ataların övladı dünyaya gəldiyi zaman 2 həftə, yəni 14 gün ödənişsiz məzuniyyətə çıxmaq hüququ var. Bu qanun həm dövlət, həm də özəl şirkətlərə şamil olunur. Qeyd edim ki, bu məzuniyyətin ödənişli əsaslarla verilməsi ilə bağlı müzakirələr aparılır.

Əlbəttə ki, qadınların kişilərlə bərabər iştirakçılığı üçün həm evdə, həm də iş yerlərində təhlükəsiz şərait olmalıdır. Onların gender əsaslı zorakılığa və məişət zorakılığına məruz qalmaması üçün müvafiq normativ-hüquqi aktlar qəbul edilib, fəaliyyət planı və qaydalar təsdiqlənib. Nəticədə zorakılığın bu və digər formasından zərərçəkmiş şəxsin hüquqlarının müdafiəsi gücləndirildi; zərərçəkmiş şəxsin tələbi ilə dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edildi; zərər törədən şəxsin hərəkətlərinə dair sanksiyalar sərtləşdirildi; qısamüddətli və uzunmüddətli mühafizə orderlərinin müddəti artırıldı; məişət zorakılığından zərərçəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizmi yaradıldı; zorakılıq hallarının şahidi və qurbanı olmuş uşaqların hüquqlarının müdafiəsi daha da gücləndirildi. Azərbaycanda nikah yaşının 1 ildən çox olmayaraq azaldılması halı aradan qaldırıldı, həmçinin yetkinlik yaşına çatmayanlarla qeyri-rəsmi erkən nikaha daxil olan şəxslər və buna şərait yaradan valideynlər, qəyyumlar barəsində sanksiyalar sərtləşdirildi. Qanun bu il iyulun 1-dən qüvvəyə minəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin nəticəsi olaraq bu gün uşaq hüquqlarının müdafiəsi sahəsində əsaslı nailiyyətlər əldə olunmuşdur. Uşaq hüquqlarının müdafiəsinə dair çox güclü qanunvericilik bazası mövcuddur. Və bu sahədə davamlı islahatlar aparılır. Uşaqlarımız üçün ədalətli, inklüziv imkanlar yaradılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, fondun vitse-prezidenti Leyla xanım Əliyevanın uşaqların hərtərəfli inkişafı istiqamətində gördüyü çox önəmli və genişmiqyaslı işləri xüsusilə qeyd etmək lazımdır. Cəmiyyət inkişaf etdikcə təbii ki, tələblər dəyişir, yeni çağırışlar meydana gəlir. "Gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır" - ölkə Prezidentinin bu fikirləri uşaq hüquqlarının müdafiəsi sahəsində prioritetləri müəyyən edir. 2018-ci ildə qəbul edilmiş və 2020-ci ildə qüvvəyə minmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun bu sahədə böyük əhəmiyyət kəsb edir. Uşaqların zərərli təsirlərdən müdafiə olunması istiqamətində qanunvericilik bazası mövcuddur. "Uşaq hüquqları haqqında", "Telekommunikasiya haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarını və digər müvafiq hüquqi-normativ aktları misal göstərə bilərik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 22 oktyabr 2019-cu il tarixdə "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. Bu konvensiya daha çox "Lansarote Konvensiyası" kimi tanınır. Bundan sonra milli qanunvericiliyə bir sıra mühüm dəyişikliklər və uyğunlaşdırmalar edildi. Eləcə də "Övladlığa götürmə" ilə bağlı aparılan islahatlar, "Himayədar ailə" institutunun hüquqi bazasının yaradılması da mühüm dəyişikliklərdir.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi vaxtdan bu günədək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Onun xarici siyasəti nəticəsində Azərbaycan regionun ən güclü və suveren dövlətinə, eləcə də yüksək beynəlxalq nüfuza malik olan ölkəyə çevrilib. 30 ilə yaxın davam edən erməni işğalına son qoyulub, Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunub. Bu gün xalqımız Ümummilli Liderin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşmişdir.

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə ölkəmizi, mədəniyyətimizi, tariximizi, mədəni irsimizi yüksək səviyyədə beynəlxalq aləmdə təbliğ edir. Biz inanırıq ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir.*

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

# "Araz-2025" birgə təlimi Azərbaycan-İran münasibətlərinin inkişafından xəbər verir



Azərbaycan və İran arasında münasibətlər zaman-zaman fərqli məcralarda inkişaf edib. Azərbaycan qonşu dövlətlə münasibətlərin inkişafı üçün əlindən gələni etməyə çalışıb. Ara-sıra anlaşılmazlıqlar baş versə də, ümumiyyətlə, iki ölkə siyasi iradə nümayiş etdirərək qarşıya çıxan problemlərin həll edilməsi üçün müvafiq işlərin görülməsini təmin etməyə çalışıb.

Milli Məclisin deputatı Vüqar İskəndərov bununla bağlı qəzetimizə açıqlamasında bildirib ki, İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanan sənədlər, verilən bəyanatlar hər iki tərəfin xoş qonşuluq niyyətində, münasibətlərin bütün sahələrdə tənzimlənməsində maraqlı olduğunu deməyə əsas verir: "Azərbaycanla bağlı həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birini dəstəkləmək, regional məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində birgə fəaliyyət üçün yol xəritəsi cızıblar. Bu sevindirici haldır. İmzalanan sənədlər bir çox sahələri əhatə edir. Bunlardan biri də hərbi-texniki, müdafiə sənayesi sahəsidir".

Deputat vurğulayıb ki, Azərbaycan-İran hərbçiləri arasında həyata keçirilən "Araz-2025" hərbi təlimini daha da maraqlı edən işğaldan azad edilmiş ərazilərdə keçirilməsidir. Azərbaycan-İran hərbi əməkdaşlığının dərinləşdirilməsində birgə təlimin əhəmiyyəti çox böyükdür. Tədbirdə çıxış edənlər də iki ölkə arasında hərbi əməkdaşlığın faydalı olmasından söz açaraq, təlimin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, bu təlim iki ölkənin silahlı qüvvələri arasında qarşılıqlı etimadın yaranmasına xidmət edir. Bu, çox vacib məsələdir.

V.İskəndərovun fikrincə, iki ölkə arasında hərbi sahədə münasibətlərin formalaşması, inkişafı həm qarşılıqlı faydalı əməkdaşlıq, həm də region üçün çox vacibdir: "Hazırda Azərbaycan və İran hərbçilərinin təlimdə iştirakı bir çox məsələləri özündə ehtiva edir. Bu təlim hərbi məsələləri əhatə etməklə bərabər siyasi hədəflərini də biruzə verməkdədir. Təlimlərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində keçirilməsi İran dövlətinin ölkəmizlə münasibətlərə daha çox önəm verdiyini göstərir. İran Prezidentinin Azərbaycanda olarkən Qarabağdakı zəfərimizi qeyd etməsi, siyasi mövqeyini bildirməsi bu təlimlərlə də özünü göstərir".

V.İskəndərov qeyd edib ki, bütün bunlar imzalanmış sənədlər, verilən bəyanatların işləməsi deməkdir. Təbii ki, bu, məmnunluq doğurur. Azərbaycan və İran hərbçilərinin "Araz-2025" birgə təliminin iki qonşu ölkə arasında bütün sahələrdə gələcək inkişafa böyük stimul verəcəyinə inam yaradır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# BP ölkəmizdə təhsilə dəstəyini davam etdirir

"Biz Azərbaycanda ən çox töhfə verə biləcəyimizə inandığımız sahələrə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək göstərmək öhdəliyi götürmüşük". Ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkəti belə bəyan edir.



BP dayanıqlı inkişaf təşəbbüslərini, yəni sosial proqramlarını özünün əsas layihələrindəki əməliyyatlarının ayrılmaz hissəsi sayır. Şirkətin ölkədə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirir.

Sosial proqramların bir çoxunu şirkət "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - SOCAR, TPAO, LUKOİL, SGC, NİCO, MOL, İNPEX, "ExxonMobil", İTOCHU, "ONGC Videsh", "Eni", MVM və "TotalEnergies"lə birlikdə həyata keçirir. Bəzilərini isə bir şirkət olaraq özü gerçəkləşdirir.

Sosial sərmayələr əsasən yerli potensialın yaradılmasına, icmaların inkişafına, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılmasına və digər sahələrə yönəldilir. Bunların sırasında təhsilə dəstək də mühüm yer tutur.

Elə bu günlərdə BP öz tərəfdaşları adından Bakı Dövlət Universitetinin tədris infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsinə yönəldilmiş daha bir sosial layihənin uğurla tamamlandığını bildirdi. Layihənin nəticəsi kimi universitetdə müasir və interaktiv bir tədris məkanı olan geologiya muzeyi açıldı. Bu innovativ tədris və təlim mərkəzi Azərbaycanın zəngin geoloji irsi, təbii ehtiyatları və həmin sahədəki elmi nailiyyətlərinə dair məlumatları əhatəli şəkildə təqdim etmək məqsədilə yaradılıb.

Muzey geologiya və geofizika fakültələrinin müəllim heyəti və tələbələrinə geoloji elmlər və əlaqəli sahələri öyrənmək və araşdırmaq üçün müasir vasitələrdən istifadə etmək imkanı verir. Bu mövzuları əhatə edən muzey 8 tematik guşədən ibarətdir: Azərbaycanın geologiya tarixi, bölgələrinin geoloji xüsusiyyətləri, mineral ehtiyatları, fosilləri və paleontologiyası, qeyri-adi geoloji quruluşlar və qorunan təbiət abidələri, geoloji ehtiyatların iqtisadi və sosial əhəmiyyəti. Muzeydə eləcə də "Heydər Əliyev və geoloji inkişaf", "Geoloji tədqiqatlar və innovasiyalar" mövzularında tematik guşələr var.

Hər bir guşə interaktiv ekranlar və xəritələr, elmi eksponatlar, multimedia materialları, sensorlu oyunlar, müasir texnoloji lövhələr, simulyatorlar və virtual reallıq elementləri ilə təchiz olunub və ziyarətçilər üçün həm maarifləndirici, həm də əyləncəli təcrübə təqdim edir. Bundan əlavə, muzeyin tərkibində açıq məkan şəklində nəzərdə tutulmuş tədris zonası da mövcuddur.

Təxminən 600 bakalavr tələbəsi (əsasən geologiya, geofizika və əlaqəli ixtisaslar üzrə təhsil alanlar) və eləcə də müəllim heyəti tədris, təlim və elmi-tədqiqat fəaliyyətləri üçün muzeydəki məzmundan faydalanacaq.

Layihə ilə bağlı BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz belə deyib: "Bu layihə ölkədə təhsilə və digər mühüm sosial inkişaf sahələrinə davamlı dəstəyimizin gözəl nümunəsidir. Tərəfdaşlarımızla birlikdə çox məmnunuq ki, artıq bir əsrdən çox tarixi olan və aparıcı, nüfuzlu təhsil müəssisəsi kimi geniş miqyasda tanınan Bakı Dövlət Universiteti bu cür unikal bir mərkəzə sahib olacaq. Bu mərkəz geoloji və geofiziki biliklərin zəngin məlumat bazasını innovativ şəkildə təqdim etməyə imkan verəcək. İnanırıq ki, muzeyin dizaynı, texniki təchizatı və təqdim olunan əhatəli informasiya hər bir ziyarətçiyə yer üzünün zəngin və rəngarəng sərvətlərini kəşf etmək üçün unikal bir təcrübə yaşadacaq. Ümid edirik ki, həm tələbələr, həm də digər ziyarətçilər ölkənin təbii ehtiyatlarının əsrarəngiz müxtəlifliyini və onun diqqətəlayiq geoloji irsini dərindən anlayacaq və dəyərləndirəcəklər."

Muzey üçün alınmış bütün avadanlıq, texniki və proqram təminatı da daxil olmaqla layihənin ümumi dəyəri 395810 manatdır. Layihə yerli şirkət olan ADZONE-S MMC tərəfindən icra edilib.

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AMİU) isə BP bu günlərdə tam təchiz edilmiş üç yeni laboratoriya açıb. Bu, ölkədə təhsilin inkişafına və innovasiya potensialının artırılmasına BP-nin daha bir əhəmiyyətli töhfəsidir.

Ventilyasiya, su təchizatı və istilik texnikası laboratoriyası Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasına hədiyyə edilib. Meliorasiya və su təsərrüfatı tikintisi kafedrasına təqdim olunan laboratoriya nasos və nasos qurğuları laboratoriyasıdır. Daxili yanma mühərrikləri və hidravlik intiqal laboratoriyası isə Texnoloji maşın və avadanlıqlar kafedrasına təqdim olunub.

Yeni laboratoriyalar şirkətin AMİU-ya daha öncə bağışladığı üç laboratoriyaya əlavə olaraq universitetin texniki infrastrukturunun genişləndirilməsinə xidmət edir.

Laboratoriyaların təqdim olunması tədbirində çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "İxtisaslaşdırılmış tədris obyektlərinin, infrastrukturun və avadanlıqların mövcudluğu tədris prosesinin müasirləşdirilməsində əsas rol oynayır. Bu, ölkə üçün yeni nəsil memar və inşaat mühəndislərinin yetişdirilməsinə zəmin yaratmaqla, qabaqcıl beynəlxalq təcrübələrdən, rəqəmsal vasitələrdən və müasir texnologiyalardan istifadə edərək yeni tədris və təlim metodlarının tətbiqinə imkan verir. Çox məmnunuq ki, Memarlıq və İnşaat Universitetinin texniki imkanlarının artırılmasını dəstəkləmək, ümumilikdə isə Azərbaycanda yüksəkkeyfiyyətli təhsilin və elmi tədqiqatların inkişafına töhfə vermək imkanımız var".

Layihənin ümumi dəyəri 170245 manatdır. Qeyd edək ki, fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə proqramlarına ümumilikdə 111 milyon dollardan çox vəsait xərcləyib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan tədbirdə 308 tələbəyə "Adlı təqaüd" verilib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi (ATİAHİRK) tərəfindən təhsildə və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 308 tələbəyə "Adlı təqaüd" təqdim edilib.**






Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan tədbir Bakı Ali Neft Məktəbində (BANM) keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasətindən danışıb, gənclərin vətənpərvərlik ruhunda böyüməsi, potensialının reallaşdırılması, yüksəkixtisaslı kadr kimi formalaşması istiqamətində görülən işləri vurğulayıb. Heydər Əliyev Fondunun Azərbaycan gəncliyinin inkişafındakı xidmətlərindən bəhs edən konfederasiya sədri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elm, təhsil, mədəniyyət, səhiyyə, idman və digər sahələrdə həyata keçirilən mühüm layihələri diqqətə çatdırıb. Qeyd edilib ki, Azərbaycan həmkarlar ittifaqları da dövlətin gənclər siyasətinə fəal dəstək verir, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək hüquqlarının qorunması və potensialının inkişaf etdirilməsi istiqamətində müxtəlif tədbirlər və layihələr həyata keçirir. Belə layihələrdən biri olan "Adlı təqaüd" tələbə gənclərin elmə və təhsilə marağının artmasına, onların fərdi və peşəkar inkişafına əhəmiyyətli töhfə verir.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov təhsil sahəsində aparılan islahatlar, ölkəmizdə təhsilə göstərilən diqqət və qayğıdan, gənclərin yüksək səviyyədə təhsil almaları üçün yaradılan əlverişli şəraitdən bəhs edib, "Adlı təqaüd" layihəsinin önəmini vurğulayıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov Azərbaycan gəncliyinin elmə marağının artması istiqamətində görülən işlərdən, gənclərimizin elmi nailiyyətlərindən danışıb, Bakı Ali Neft Məktəbi tələbələrinin uğurlarını, Azərbaycanın ali təhsil müəssisələrində müxtəlif sahələr üzrə gələcəyin peşəkar mütəxəssislərinin yetişdiyini vurğulayıblar.

Qeyd edək ki, təqaüd ölkənin müxtəlif orta ixtisas, peşə təhsili və ali təhsil müəssisələrində əla və yaxşı qiymətlərlə oxuyan, tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən tələbələrə verilir.

ATİAHİ RK-nın "Adlı təqaüd" layihəsi 1995-ci ildən həyata keçirilir. Əvvəlki illərdə hər semestr üzrə 65 tələbəyə, 2024-2025-ci tədris ilinin birinci semestrinin yekunlarına görə 100, ikinci semestrinin nəticələrinə əsasən isə 308 tələbəyə "Adlı təqaüd" verilib. İndiyədək 3179 tələbə bu təqaüdə layiq görülüb.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi mayın 20-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca təqsirləndirilən Ruben Vardanyan müraciət edərək işə baxan hakimlər kollegiyasına etiraz etdiyini bildirib. Təqsirləndirilən şəxsin müdafiəçisi Avraam Berman etirazı müdafiə edib.

Dövlət ittihamını müdafiə edən prokurorlar etiraza münasibət bildirərək təqsirləndirilən Ruben Vardanyanın cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulan hüquqlarının ibtidai istintaq və məhkəmə icraatı zamanı təmin edildiyini, habelə müdafiə tərəfinin işə baxan məhkəmə kollegiyasının cinayət təqibində maraqlı olmasını təsdiq edən konkret sübutlar təqdim etmədiyini qeyd edərək etirazın baxılmamış saxlanılmasını xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

Sədrlik edən hakim Zeynal Ağayev qərarı əsaslandıran zaman bildirib ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret və mötəbər dəlillər təqdim etməyib.

Ardınca zərərçəkmiş şəxslərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin məhkəmədə ifadələri dinlənilib.

Zərərçəkmiş Ümid Həsənovun hüquqi varisi qismində tanınaraq dindirilən Məxfurə Həsənova bildirib ki, övladı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Kəlbəcərdə törədilmiş genişmiqyaslı təxribat nəticəsində həlak olub.



Digər zərərçəkmiş şəxsin - Niyazi Məmmədəliyevin hüquqi varisi qismində tanınaraq dindirilən Şadman Məmmədəliyev ifadəsində bildirib ki, qardaşı Ağdam-Ağdərə-Sırxavənd istiqamətində düşmən tərəfinin odlu silahdan açdığı atəşlər nəticəsində həlak olub.

Zərərçəkmiş şəxslər - Zaur Sadıqov, Əli Şıxəliyev, Peyman Cabbarov, Zahid Qocayev bildiriblər ki, Kəlbəcər rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin genişmiqyaslı təxribatı zamanı güllə yarası alıblar. Həmin vaxt onlarla bərabər olan başqa bir neçə nəfər də xəsarət alıb və həlak olub.

İfadə verən zərərçəkmiş İlkin Musazadə və Salman İmranzadə bildiriblər ki, düşmən tərəfinin Xocavənddə törətdiyi təxribat zamanı açılmış atəş nəticəsində güllə yarası alıblar. Onlar dövlət ittihamçıları Fuad Musayevin və Vüsal Abdullayevin suallarına cavabında qeyd ediblər ki, həmin vaxt olduqları ərazilərə iriçaplı silahlardan atəş açılıb, nəticədə bir neçə nəfər həlak olub.

Zərərçəkən Süleyman Əsədullayev dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında Ağdərənin Canyataq kəndində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan "Kornet" tipli raket mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını bildirib.

Məhkəmədə zərərçəkmiş şəxs qismində ifadə verən Ramin Balaxanlı Xocalının Xanabad kəndinə atılan minaatan mərmilərinin onun yaxınlığına düşüb partlaması nəticəsində yaralandığını bildirib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında deyib ki, həmin vaxt onunla birgə Pünhan Kazımov və Babək Əhmədli də müxtəlif növ bədən xəsarətləri alıb.

Digər zərərçəkmiş şəxs Vüsal Məmiyev isə deyib ki, Xocalıda yaralanıb. Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində Sahil Aslanov və Rəşid Zeynallı həlak olub. Onunla bərabər olan Nurlan Quliyev və Rövşən Əzimli isə yaralanıblar.

Düşmən tərəfindən törədilən təxribatın qurbanlarından biri də Tale Zabitov olub. Zərərçəkmiş şəxs ifadəsində deyib ki, Xocalıda olan zaman açılmış atəşlər nəticəsində o, Gülverdi Mehtiyev və Müslüm Əliyev yaralanıb.

Digər zərərçəkmiş şəxs Samir Baxışov Xankəndidən açılmış atəş nəticəsində yaralandığını deyib.

Zərərçəkmiş Vüsal Alıyev ifadəsində Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən genişmiqyaslı təxribat xarakterli hərəkətlər törədilməsi nəticəsində Laçında yaralandığını bildirib. O bildirib ki, hadisə zamanı Coşqun Zülfüzadə və Mirtalıb Ağazadə həlak olub.

İfadə verən zərərçəkmiş şəxs Fərhad İsmayıllı da Laçın rayonu ərazisində düşmənin təxribatı nəticəsində yaralandığını deyib. Bildirib ki, düşmən izburaxan alışdırıcı güllələrdən, minaatanlardan və tank əleyhinə mərmilərdən istifadə etməklə onun olduğu yeri atəşə tutub. Atılan mərmilərdən biri onun təxminən 7-8 metr yaxınlığına düşüb partlayıb. Partlayışın təsiri onu kənara tullayıb.

Zərərçəkmiş şəxslər - Mirsadiq Mirsadiqov və Ceyhun Bayramov da Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı dəstələrinin təxribatı zamanı yaralandıqlarını bildiriblər.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası mayın 27-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# İqtisadiyyat və sosial həyat

## Özbəkistan aqrar sığorta modelinin qurulmasında Türkiyə və Azərbaycan təcrübəsindən istifadə edəcək

**Azərbaycanda dövlət dəstəkli aqrar sığorta modelinin uğurlu tətbiqi və təsərrüfatların risklərini səmərəli şəkildə qarşılaması digər ölkələrin də diqqətini cəlb edir.**

Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə böyük potensialı ilə seçilən Özbəkistan müasir aqrar sığorta modelinin qurulmasında Türkiyə və Azərbaycan təcrübəsindən istifadə edəcək.



Bununla bağlı qarşıdakı tədbirləri və atılacaq addımları müzakirə etmək məqsədilə Özbəkistanın İqtisadiyyat və Maliyyə Nazirliyinin nümayəndəsi Botir Usmanaliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Nümayəndə heyətinin tərkibində İqtisadiyyat və Maliyyə Nazirliyi ilə yanaşı, Özbəkistan Respublikasının Prezident Administrasiyası, Kənd Təsərrüfatı Nazirliyi, Elektron Hökumətin nümayəndələri təmsil olunurlar.

Bakı səfərində Özbəkistan nümayəndə heyəti Azərbaycanda aqrar sığorta mexanizmi ilə tanışlıq və təcrübə mübadiləsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi (KTN), Azərbaycan Mərkəzi Bankı (AMB), Aqrar Sığorta Fondunda (ASF) görüşlər keçirmişlər. Eyni zamanda nümayəndə heyətinin üzvləri Azərbaycanda aqrar sığorta sisteminin üzvü olan vasitəçi şirkətlər, eləcə də müstəqil aqrar sığorta ekspertləri ilə görüşlər keçirib, müzakirələr aparmışlar.

Bakıda keçirilən görüşlərdə kənd təsərrüfatı risklərinin sığortası ilə bağlı qüvvədə olan qanun və qaydalar, qanunvericilik bazası, onların xüsusiyyətləri və ölkənin sığorta bazarında əhəmiyyəti, Aqrar Sığorta Fondunun təşkilati strukturu, hüquqi statusu, səlahiyyət və vəzifələri, fəaliyyətinin tənzimlənməsi, fondun vəsaitlərinin formalaşması və səmərəli istifadəsi kimi məsələlər müzakirə edilmişdir.

Aqrar Sığorta Fondunda keçirilən görüşlərdə aqrar sığorta qaydaları, sığorta tariflərinin müəyyən edilməsi, aqrar sığortada fermerlərə dövlət dəstəyi, zərərlərin ödənilməsi və təkrar sığorta proseslərinə nəzarət kimi məsələlər müzakirə olunmuşdur.

Aqrar Sığorta Fondunun nümayəndələri Özbəkistan nümayəndə heyətinə Aqrar Sığorta İnformasiya Sisteminin (ASİS) fəaliyyəti və strukturu, onun digər informasiya sistemləri ilə inteqrasiyası, aqrar sığorta müqavilələrinin elektron bağlanması, sığortalıların hüquq və vəzifələri, müstəqil ekspertlərin fəaliyyəti, sığorta hadisələrinin araşdırılması, sığorta ödənişi prosesi mexanizmi kimi məsələlər barədə ətraflı məlumat vermişlər.

Özbəkistan nümayəndə heyəti həmçinin Bakıda keçirilən 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ("Caspian Agro") və 30-cu yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi ("InterFood Azerbaijan") ilə də tanış olmuşlar. Sərgidə Aqrar Sığorta Fondunun stendini ziyarət edən Özbəkistan nümaynədələrinə Azərbaycanda aqrar sığorta mexanizmi, sığortalanan məhsullar, aqrar sığortanın əhatə etdiyi və fermerlərlə iş, sığorta ödənişi və sair məsələlər barədə geniş məlumat verilmişdir.

Özbəkistan nümayəndə heyətinin rəhbəri Botir Usmanaliyev "Caspian Agro" 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi çərçivəsində "Aqrar sığorta sisteminin inkişaf perspektivləri: Azərbaycan təcrübəsi, çağırışlar və beynəlxalq təcrübə" mövzusunda panel müzakirələrində iştirak etmişdir. B.Usmanaliyev panel müzakirəsində Özbəkistanda aqrar sektora təsir edən risklər, aqrar sığorta mexanizminin yaradılması üçün atılan addımlar, bu prosesdə Azərbaycan və Türkiyə təcrübəsindən istifadə edilməsi barədə geniş məlumat vermişdir.

Xatırladaq ki, böyük kənd təsərrüfatı imkanlarına və potensialına malik olan Özbəkistanda Türkiyə və Azərbaycan təcrübəsi əsasında aqrar sığorta mexanizminin yaradılmasına başlanılıb. Aprel ayında bu ölkədə aqrar sığorta haqqında yeni qanun qəbul edilib və digər sənədlərin hazırlanmasına start verilib.

## Özəl sektora real dəstək

### Sahibkarlığın İnkişafı Fondu təkcə iki ayda 550-dən çox biznes layihəsinə güzəştli kredit verib

**Müasir dünyada güclü iqtisadiyyatın bünövrəsində dayanan əsas sütunlardan biri sahibkarlıqdır. Sahibkar yalnız qazanc əldə edən şəxs deyil, eyni zamanda cəmiyyətin rifahına töhfə verən, yeni iş yerləri yaradan və innovasiyaların cəmiyyətə inteqrasiyasını təmin edən önəmli bir qüvvədir. Lakin sahibkarlığın inkişafı yalnız şəxsi təşəbbüslərlə məhdudlaşmır, bu prosesdə dövlətin dəstəyi həlledici rol oynayır.**



Dövlətin ən mühüm dəstək mexanizmlərindən biri sahibkarlara maliyyə dəstəyidir. İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu (SİF) bu dəstəyi həyata keçirən əsas qurumdur. Qeyd edək ki, fondun məqsədi Azəbaycanda sahibkarlığı inkişaf etdirmək, biznes fəaliyyətini stimullaşdırmaq və yeni iş yerləri yaratmaqda biznesmenlərə yardım etməkdir. Fond vasitəsilə sahibkarlara aşağı faizli, uzunmüddətli və güzəştli kreditlər təqdim olunur. Bu kreditlər kənd təsərrüfatı, sənaye, turizm, xidmət sektoru, innovativ və startap layihələrə yönəldilir. SİF regionların inkişafına xüsusi önəm verir. Məhz buna görə də regionlarda fəaliyyət göstərən sahibkarlar üçün xüsusi güzəştli kredit proqramları mövcuddur.

Biznes-planların hazırlanmasına dəstək verən SİF həm də sahibkarlara investisiya layihələrinin formalaşdırılmasında kömək edir. Maarifləndirici tədbirlər, seminarlar və təlimlər də SİF-in yardımı ilə baş tutur. Bütün bunlar müəyyən vəsait tələb edən layihələrdir ki, onu da SİF reallaşdırır. Faktlara müraciət edək. SİF tərəfindən 2025-ci ilin ilk iki ayı ərzində 547 layihənin maliyyələşdirilməsinə 32,1 milyon manat güzəştli kredit verilib. Məhz həmin kreditlər hesabına 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Güzəştli kreditlər prioritet sahələr üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin inkişafına yönəldilib. Belə ki, verilmiş kreditlərin ümumi məbləğinin 40,5 faizi kənd təsərrüfatının, 56 faizi sənayenin (o cümlədən aqrar emal), 3,5 faizi isə digər sahələrin payına düşüb.

SİF-in məlumatına görə, güzəştli kreditlərdən yararlanmış sahibkarlıq subyektlərinin əhəmiyyətli hissəsi regionlardadır. Burada sahibkarlar əsasən kənd təsərrüfatı, ərzaq sənayesi, turizm, emal və xidmət sahələrində fəaliyyət göstərirlər. Həmin sahibkarlıq subyektləri Azərbaycanda iqtisadi inkişafın mühüm tərkib hissəsi olduğu üçün dövlət bu sahəyə xüsusi diqqət yetirir. Məhz bu dəstək işsizliyin azaldılmasında, əhalinin rifah səviyyəsinin yüksəldilməsində, yerli resurslardan səmərəli istifadədə və bölgələrarası inkişaf fərqinin aradan qaldırılmasında böyük rol oynayır. Qeyd edilən dövr ərzində güzəştli kreditdən yararlanmış layihələrin 96,5 faizi, həmin kreditlərin ümumi məbləğinin isə 75 faizə yaxını regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin payına düşür.

Azərbaycanda mikro, kiçik və orta biznesin inkişafı da ölkənin iqtisadiyyatında mühüm yer tutur. Bu biznes subyektləri ümumi sahibkarlıq strukturunun böyük bir hissəsini təşkil edir və regionların sosial-iqtisadi inkişafında xüsusi rol oynayır. Kiçik və orta biznesin (KOB) də dövlətin güzəştli maliyyə mexanizmləri ilə dəstəklənməsi diqqətdən kənarda qalmır. Belə ki, yanvar-fevral aylarında maliyyələşdirilmiş layihələrin 99,6 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinə məxsusdur. Həmin subyektlərə dəstək verən qurumlardan olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) sahibkarlara təşkilati, hüquqi və məsləhət xidməti göstərən mühüm qurumlardandır. KOBİA-nın təşəbbüsü ilə keçirilən təlimlər və seminarlar biznes biliklərinin artırılmasına yönəldilir. Agentlik sahibkarlara genişspektrli xidmət təqdim etməklə yanaşı, onların dövlətlə əlaqələrini asanlaşdırır və biznes mühitinin şəffaf şəkildə inkişafına təkan verir.

Sahibkarların hüquqlarının müdafiəsi ilə yanaşı, KOBİA startaplara, gənc və qadın sahibkarlara xüsusi proqramlar, qrantlar təklif edir. KOB evləri vasitəsilə sahibkarlara dövlət xidmətləri təqdim olunur, həmçinin yerli sahibkarların xarici bazarlara çıxışı təşviq edilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurulur. Bunların sayəsində indi regionlarda biznes fəaliyyəti canlanıb, kiçik və orta biznesin dövlətə çıxışı asanlaşıb, sahibkarlar arasında məlumatlılıq irəliləyib, gənc və qadın sahibkarların sayı artıb.

Sənaye parkları, aqroparklar və texnoparkların yaradılması sahibkarlığın inkişafında yeni mərhələ yaradır. Sənaye zonalarında sahibkarlara torpaq, su, enerji və digər resurslar münasib şərtlərlə təqdim edilir. Deyilənlərə sahibkarlığın ixrac potensialının dövlət tərəfindən təşviqini də əlavə etsək, mənzərə aydın olur. Bu mənzərəni daha aydın göstərən İxracın və İnvestisiyaların Təşviqi Agentliyidir (AZPROMO). 2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən təsis edilən AZPROMO qeyri-neft sektorunun inkişafını dəstəkləyən və ölkə məhsullarının beynəlxalq bazarlara çıxışını asanlaşdıran, tanıdılmasını təmin edən və xarici investorlarla əlaqələrin qurulmasına yardım göstərən dövlət qurumudur. Təsisat sahibkarların beynəlxalq sərgilərdə iştirakını təmin etməklə yanaşı, "Made in Azerbaijan" brendini xarici bazarlarda tanıdır. İxracla məşğul olan sahibkarlara logistik, marketinq və maliyyə dəstəyi göstərilir.

Göründüyü kimi, Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində genişmiqyaslı və çoxşaxəli dövlət dəstəyi mövcuddur. Bu dəstək sayəsində sahibkarlar daha əlverişli şəraitdə fəaliyyət göstərə bilir, ölkənin iqtisadi potensialı güclənir, yeni iş yerləri açılır. Dövlət dəstəyinin davamlı və məqsədyönlü şəkildə aparılması isə gələcəkdə rəqabətqabiliyyətli və innovativ sahibkarlıq mühitinin formalaşmasına şərait yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## ƏƏSMN-in e-xidmətlərinə 8,5 milyondan çox müraciət daxil olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə yanvar-aprel aylarında 8 mln. 546 min müraciət edilib.**

Ölkənin sosial reyestri olan "e-sosial" portalından həmin dövrdə 5,1 milyon dəfə istifadə olunub, 90 min təyinat e-infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib.

Son illərdə sosial sahədə icra olunan geniş elektronlaşma proqramı nəticəsində hazırda nazirliyin 159 xidmətindən 90 faizdən çoxu e-qaydada təqdim olunur. Həmçinin 55-dən çox proaktiv xidmət, geniş funksional imkanlara malik "e-sosial" portalı, "Əmək və Məşğulluq" altsistemi fəaliyyət göstərir.

Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlardan sorğular da daxil olmaqla, cari ilin 4 ayı ərzində nazirliyin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 135 milyon olub.



## Dörd ayda qeyri-neft məhsullarının ixracı 18 faiz artıb




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın aprel sayını təqdim edib. İcmala əsasən, cari ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,7 faiz artaraq 771,9 milyon dollar təşkil edib.**

İlin ilk üç ayında ixrac olunan qiymətli və ya azqiymətli daşlar və metallar ötən ilin müvafiq dövrünə nəzərən 3,4 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar 76,8, kimya sənayesi məhsulları 33,4, şəkər 18,8, meyvə-tərəvəz 15,7, alüminium və ondan hazırlanan məmulatlar 10,2, spirtli və spirtsiz içkilər 5,7, çay 5,1, bitki və heyvan mənşəli piylər və yağları 4,2, pambıq iplik 0,4 faiz artıb. Hesabat dövründə ixrac edilən aqrar məhsulların dəyəri 12,3 faiz artaraq 170,5 milyon, aqrar-sənaye məhsulları üzrə 17,6 faiz artaraq 69,1 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 13,8 faiz artaraq 239,6 milyon dollar (13,8 faiz çox) təşkil edib. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, karbamid ikinci, pomidor (tomat) isə üçüncü yerdə qərarlaşıb.

Cari ilin ilk üç ayında Rusiya Federasiyasına 232,9 milyon, Türkiyəyə 134,3 milyon, Gürcüstana 80,6 milyon, İsveçrəyə 69,6 milyon, Ukraynaya 51,1 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub.

Yanvar-mart ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda bu şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "P-Aqro" MMC, "LEPIN LM" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti, "KHAN-EL" MMC, "Binə Aqro" QSC, "Sahdag Sy" Məhdud Məsuliyyətli Cəmiyyəti.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra siyahıda "SOCAR Polymer" MMC, "AzerGold" QSC ,"Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji" ATSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Qaradağ Şüşə Zavodu" ASC təmsil olunurlar.

İlin birinci rübündə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 40 ölkəsindən 100-ə yaxın şirkətə 4 milyon dollar dəyərində peyk-telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65 faizinə bərabər olub. Mart ayında isə "Azərkosmos" dünyanın 39 ölkəsinə 1,3 milyon dollar dəyərində xidmət ixrac edib.

Birinci rüb ərzində peyk-telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1 milyon dollarla Birləşmiş Krallıq, 890,3 min dollarla Lüksemburq, 213,4 min dollarla Nigeriya, 179 min dollarla Misir və 174 min dollarla Pakistan qərarlaşıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"nın may sayına dair ilkin göstəriciləri də açıqlayıb. İcmala əsasən, cari ilin yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 faiz artaraq 1,1 milyard dollar olub. Cari ilin dörd ayında qeyri-neft-qaz sahəsi üzrə ixrac olunan mallar arasında kimya sənayesi məhsulları ötən ilin müvafiq dövrünə nəzərən 42,5, şəkər 25,8, qara metallar və onlardan hazırlanan məmulatlar 16,7, meyvə-tərəvəz 14,8, alüminium və ondan hazırlanan məmulatlar 9,8, pambıq iplik 5,3 faiz artıb. Bu dövrdə ixrac olunan aqrar məhsulların dəyəri 14 faiz artaraq 232,7 milyon, aqrar-sənaye məhsulları üzrə 7,9 faiz artaraq 90,8 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 12,2 faiz artaraq 323,57 milyon dollara çatıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## İlin əvvəlindən Azərbaycana 174 ölkədən 736 minə yaxın turist gəlmişdir

**Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 174 ölkəsindən 735,8 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.**

Gələnlərin 24,2 faizi Rusiya Federasiyası, 18,0 faizi Türkiyə, 11,0 faizi Hindistan, 9,0 faizi İran, 4,7 faizi Gürcüstan, 3,6 faizi Qazaxıstan, 2,9 faizi Pakistan, 2,5 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi İsrail, hər birindən 1,8 faiz olmaqla Özbəkistan və Çin, 1,5 faizi Ukrayna, 1,4 faizi Türkmənistan, 1,1 faizi Küveyt, 1,0 faizi Belarus, 11,4 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

Ötən ilin eyni dövrü ilə müqayisədə İsraildən gələnlərin sayı 2,8, Tacikistandan 2,0 dəfə, Çindən 1,7 dəfə, İordaniyadan - 45,6, Hindistandan 32,9, Qırğızıstandan 32,1 İspaniyadan 28,8, Yaponiyadan 26,7, Pakistandan 22,5, ABŞ-dən 20,2, Qazaxıstandan 17,7, Birləşmiş Ərəb Əmirliklərindən 16,6, Kanadadan 15,5, Niderlanddan 10,7, İtaliya və Misirin hər birindən 10,0 faiz artmışdır.

2024-cü ilin yanvar-aprel ayları ilə müqayisədə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 1,8 faiz artaraq 27,8 min, körfəz ölkələrindən gələnlərin sayı 3,4 faiz azalaraq 117,8 min, MDB ölkələrindən gələnlərin sayı 9,2 faiz azalaraq 243,0 min nəfər olmuş, digər ölkələrdən gələnlərin sayı isə 12,2 faiz artaraq 347,2 min nəfər təşkil etmişdir.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 71,8 faizi hava, 26,6 faizi dəmir yolu və avtomobil, 1,6 faizi isə dəniz nəqliyyatından istifadə etmişdir.

2024-cü ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 0,9 faiz azalaraq 632,7 min nəfər olmuşdur. İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 25,9, Gürcüstana gedənlərin sayı 20,4 faiz artmış, Türkiyəyə gedənlərin sayı 6,3, Rusiya Federasiyasına gedənlərin sayı isə 26,4 faiz azalmışdır. Azərbaycan Respublikası vətəndaşlarının 36,1 faizi Türkiyəyə, 16,1 faizi Rusiya Federasiyasına, 11,1 faizi Gürcüstana, 11,0 faizi İrana, 25,7 faizi digər ölkələrə səfər etmişdir.

2025-ci ilin yanvar-aprel aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 68,0 faizi hava, 29,9 faizi dəmir yolu və avtomobil, 2,1 faizi isə dəniz nəqliyyatından istifadə etmişdir.

Redaksiyaya məktub

# Xalqımıza xas ali əxlaq

**Bu günlərdə - Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Famil Mustafayevin "Azərbaycan" qəzetinin 8 may 2025-ci il tarixli nömrəsində işıq üzü görən "Sədaqət və cəsarətin manifesti" adlı çoxmənalı və təsirli essesini böyük rəğbətlə oxudum və yazdığı qiymətli fikirlərə cavab olaraq düşüncələrimi, minnətdarlığımı və onunla həmfikir olduğumu "Azərbaycan" qəzetinin oxucuları ilə bölüşmək istədim.**

Hörmətli, Famil müəllim!

Yazınızın girişində qeyd etdiyiniz şəxsi faciənizi əks etdirən "Vaxtilə Daxili İşlər Nazirliyinin əməkdaşı olan atam dostunu qorumaq üçün sinəsini qabağa verir və qəhrəmancasına həlak olur..." cümləsi bir ailə hekayəsindən çox millətimizin genetik yaddaşında özünəməxsus yer tutan ali əxlaqi düşüncənin ifadəsidir. Bu hekayə sədaqət və cəsarətin yalnız sözdə deyil, əməldə necə yaşandığını göstərən canlı örnəkdir. Atanızın bu davranışı dostluğun ən ali formasını - fədakarlığı özündə ehtiva edir. Sədaqətin bu qədər müqəddəs, bu qədər fədakarlıqla qoşa olduğu məqamda dostluq artıq sadəcə münasibətə yox, əqidəyə çevrilir. Sizin də yazdığınız kimi: *"Sədaqət - sadəcə dostluq yox, həm də əqidədir. Cəsarət - sadəcə qorxmamaq deyil, gərəkli anda doğrunun yanında olmaqdır"*. Bu sözlər bir insanın ailə yaddaşından süzülüb gəlsə də, bütöv bir xalqın ruhuna toxunan ifadələrdir. Bu fikirlər bizi həm duyğulandırır, həm düşündürür, həm də dostluq kimi ali bir dəyəri yenidən xatırladır.

Dostluq - sadəcə iki nəfərin bir-birinə yaxşı münasibət bəsləməsi deyil. Dostluq çətin anda kimin sənə əl uzatması ilə ölçülür. Ən əsası, kimin səni yaşatmaq üçün öz ömründən keçməsi ilə sübuta yetirilir. Tarix və cəmiyyət şəhidlik zirvəsini həmişə yüksək tutub. Amma şəhidlik təkcə Vətən uğrunda deyil, dost uğrunda da ola bilər. Bir nəfərin həyatını qorumaq üçün öz həyatını qurban verən adam, əslində, bir insanlıq fəlsəfəsi yazır. O, qanun kitablarında deyil, vicdan dəftərində yer tutur. O, cəmiyyətin vətənpərvərlik anlayışına yeni bir səhifə əlavə edir: dost uğrunda şəhidlik! Cəmiyyət olaraq biz çox şeydən danışırıq - sadiqlikdən, insanlıqdan, fədakarlıqdan. Amma bəzən bu anlayışlar havada qalır. Ta ki kimsə çıxıb bu dəyərlərin gerçək üzünü bizə öz ali davranışı ilə göstərənə qədər. Məsələn, bir insan atasının timsalında bizə göstərir ki, dostluq bəzən silahın qarşısında dayanmaqdır, ölümün gözünə dik baxmaqdır, başqasının həyatını xilas etmək üçün öz həyatına nöqtə qoymaqdır. Dost üçün canını vermək romantik qəhrəmanlıq deyil, bu, əqidənin, sədaqətin və bəlkə də ən ali insani keyfiyyətin real təzahürüdür. Cəmiyyətin mənəvi sütunları belə hadisələr üzərində qurulur. Çünki bu nümunələr insanlara təkcə fədakarlığı deyil, inamı da aşılayır - dostuna görə ölməyə hazır insan varsa, deməli, hələ də yaşamağa dəyən bir cəmiyyət var. Dostluq həm də məsuliyyətdir. Sənin yanındakı insanın qürurunu, təhlükəsizliyini və həyatını qorumaq məsuliyyəti! Bu, qanunla tənzimlənmir, amma vicdanla idarə olunur. Tərəddüd etmədən səni ölümə aparacaq bir addım atırsan və bu zaman insanı "özünü düşün" instinkti deyil, "dostum yaşasın" prinsipi idarə edir. Belə nümunələr təkcə ailə tarixlərində yox, xalqın yaddaşında əbədiləşdirilməlidir. Çünki əsl dostluq cəmiyyətin etibar kapitalıdır. Bu kapital itdikcə insanlar bir-birindən uzaqlaşır, özlərinə qapanır və nəhayət, ictimai bağlar zəifləyir. Amma bir nəfər, bir hadisə bu dəyərləri yenidən gündəmə gətirə bilər. Dostu uğrunda gözünü qırpmadan can verən insanın adı cəmiyyətin vicdan tarixində qızıl hərflərlə yazılmalıdır.

Əsl dostluq sınaqdan keçmiş münasibətdir. Sınaqların ən böyüyü isə həyatı ölümə dəyişmək məqamıdır. Bu məqamda dostluq artıq şəxsi münasibət olmur. O, bir millətin mənəviyyat aynasına çevrilir. Bu aynada əks olunanlar isə gələcək nəsillərə örnək olur. *"Atam dostunu qorumaq üçün canını verdi"* deyən bir övlad, əslində, bir millətin vicdan salnaməsini danışır. Bu salnamədə sədaqət və cəsarət var. Bu gün biz bu kimi hekayələri eşidəndə təkcə bir insanın fədakarlığını yox, bir dəyərin dirilməsini görürük. Çünki fədakarlıq unudulanda cəmiyyət çökür. Amma xatırlananda və yaşadılanda - gələcəyin təməli möhkəmlənir.

Dostluq - sadəcə söz deyil.

Dostluq - həyatın son nöqtəsində verilən qərardır.

Essenizdə məntiqi və mənəvi ardıcıllıqla Ulu Öndər Heydər Əliyevin obrazına keçid edərək, sədaqət və cəsarətin dövlət səviyyəsində necə təcəssüm etdiyini gözəl tərzdə izah edirsiniz. Yazırsınız: *"Azərbaycan tarixində elə bir şərəfli ömür var ki, o ömrün hər səhifəsi sədaqət və cəsarətin dövlət miqyasında təcəssümüdür - bu, Heydər Əliyev ömrüdür!"* Bu qənaətiniz bütövlükdə bir dövrün şərhidir. Sədaqətin sadəcə şəxsi münasibətlərdə yox, həm də siyasi mübarizədə, millət qarşısında götürülən məsuliyyətdə özünü necə büruzə verdiyini Heydər Əliyevin taleyində gördük. Moskvada təqiblərə baxmayaraq, millətinə olan sədaqəti bir an belə sarsılmadı. 1993-cü ildə ölkənin varlığı sual altında olduğu anda xalqının çağırışına cavab verməsi bu həm cəsarət idi, həm də misilsiz sədaqət! Sizin də vurğuladığınız kimi: "Ulu Öndərin liderlik dönəminin başqa bir parlaq nümunəsi isə onun Azərbaycan xalqına göstərdiyi mənəvi sədaqətidir. O, yalnız öz iradəsi və böyük zəkası ilə xalqını təhlükələrdən qurtarmaqla kifayətlənmədi, həm də mədəniyyətimizi, tariximizi və milli kimliyimizi qorumaq üçün böyük mübarizə apardı. Azərbaycanın müstəqilliyini qorumaq uğrunda apardığı mücadilə - sədaqətin və dövlətə olan bağlılığın ən yüksək göstəricisi, ən parlaq örnəyidir".

Bu cümlələr yazının təkcə siyasi yox, həm də psixoloji-fəlsəfi qatının nə qədər güclü olduğunu göstərir. İnsan fitrətindəki sədaqət və cəsarət genetik bir şifrədir - bu fikri siz çox uğurla yazının bütün ruhuna hopdurmusunuz.

Məntiqi davam olaraq Heydər Əliyevin mənəvi və siyasi irsinin varisi Müzəffər Ali Baş Komandan İlham Əliyevə keçidiniz yazının kulminasiyasıdır. İlham Əliyevin timsalında bu gün biz sədaqətin cəsarətə və qələbəyə çevrildiyini görürük. Sizin vurğuladığınız *"44 günlük savaşda Ali Baş Komandan kimi onun rəhbərliyi - təkcə əsgəri əmrlər yox, həm də misilsiz mənəvi səfərbərlik idi"* cümləsi İlham Əliyevin liderliyini yalnız siyasi yox, mənəvi ölçüdə dəyərləndirməyin nə qədər vacib olduğunu xatırladır.

Bu məqamda yazınızdakı daha bir gözəl abzası xatırlatmaq istərdim: *"Dəmir yumruq" düşmənin başı üzərindəki möhtəşəm qüvvə olmaqla bərabər, xalqımızın tarixində sədaqətin və cəsarətin simvoluna çevrildi. Həmin "dəmir yumruğ"un sahibi bir zamanlar Heydər Əliyevin cəsarətli əlindən tutmuşdu..."* Bu cümlə poetik gücü və məntiqi dərinliyi ilə yazının ruhunu ifadə edir. Liderin əqidəsi, onun ruhu bu cür ötürülür, bu cür yaşadılır...

Bu yazı sadəcə dərin psixoloji təəssürat doğurmur, həm də özümüzə dönüb baxmağa vadar edir: Biz nə qədər sədaqətliyik? Biz cəsarət deyəndə nəyi anlayırıq? Bu ali keyfiyyətlər bizdə sadəcə ehtiram doğurur, yoxsa biz də onları yaşamaq üçün çalışırıq? Esseniz oxucuda bu sualları doğurur və bu, onun ali məqamıdır.

Sədaqət və cəsarət - bu iki söz bu qədər mənalı, bu qədər təsirli, bu qədər dərindən və bu qədər səmimi ancaq bu şəkildə təqdim oluna bilərdi.

Sonda əlavə etmək istədiyim bir fikir var. Bu yazı sadəcə şəxsi yaddaşın bədii-publisistik ifadəsi deyil, həm də bir xalqın mənəvi genetikasını əks etdirən mühüm mətnlərdən biridir. Ona görə də düşünürəm ki, bu kimi yazılar yalnız qəzet səhifəsində, yaxud fərdi təəssürat dairəsində qalmalı deyil. Belə yazıların məktəblərdə və universitetlərdə müzakirə mövzusu olması vacibdir. Çünki bu yazı gənclərə sadəcə məlumat yox, onlara ruh verir, dəyərləri tanıdır, şəxsiyyət formalaşdırır. Hər abzası bir sual doğurur: "Sədaqət nədir?", "Ruhundakı cəsarəti necə oyandırmaq olar?", "Dostluq hansı anda əqidəyə çevrilir?" - bu suallar gənclərin düşüncəsində fırtına qoparır və onları öz mənəvi mahiyyətləri ilə üz-üzə qoyur. Belə mətnlər milli tərbiyə sisteminin mayası olmalıdır. Media və maarifləndirici platformalar bu yazını tirajlamaqla cəmiyyətin mənəvi sütunlarını bərpa edə bilər. Çünki bu yazı ali yaddaş çağırışıdır və gələcək nəsillərə yol göstərir. Belə yazılar bizə yalnız keçmişimizi xatırlatmır, həm də sabaha daha güvənli, dəyərlər üzərində inşa edilən bir cəmiyyət miras qoyur.

***Hüseynbala MİRƏLƏMOV,***
***texnika elmləri doktoru, professor***




# Ağdamda daha 50 ailə doğma yurduna qovuşub







Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Ağdam rayonunun yenidən qurulan Kəngərli kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.





AZƏRTAC xəbər verir ki, bu mərhələdə Ağdam rayonunun yenidən qurulan Kəngərli kəndinə 50 ailə - 207 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Mayın 20-də doğma yurduna yola salınan köç karvanı Ağdam rayonunun Kəngərli kəndinə çatıb.

Bu mərhələdə köçürülən 207 nəfərdən ibarət 50 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib. Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

# Kəngərlinin hazırda 255 sakini var

Üç onillik həsrət... Külə dönmüş ocaqlar... Viran qalmış yurdlar... Nəhayət, 2020-ci ilin payızında zəfərin səsi eşidildi, torpaqlarımızın əsarəti bitdi. Qələbədən qısa müddət sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinə başlanıldı. Bunun nəticəsi olaraq 2022-ci ilin iyul ayından etibarən keçmiş məcburi köçkünlər yurdlarına qovuşurlar. Elə bir ay, həftə yoxdur ki, qayıdış köçünün şahidi olmayaq.



Uzun illərdir əzəli yurd yerlərinə həsrət qalan vətəndaşlarımız mərhələli olaraq torpaqlarına qayıdırlar. Köç karvanlarını qarşılayan ərazilərimizdən biri də Ağdam rayonunun Kəngərli kəndidir. Şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşən kəndin təməli 4 oktyabr 2022-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulub. Dünən Kəngərli kəndi daha 207 sakininə (50 ailə) qucaq açıb. Kəndin artıq 255 sakini var. Birinci mərhələsinin açılışı mayın 10-da baş tutan Kəngərliyə bu mərhələdə 1279 nəfərin köçürülməsi planlaşdırılır. Ümumilikdə isə kənd 2544 nəfərin yaşayışı üçün nəzərdə tutulub.

Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Burada artıq 292 iki, üç, dörd və beşotaqlı fərdi ev tikilib.

Keçmiş məcburi köçkünlərin daimi məskunlaşdıqları digər ərazilərdə olduğu kimi, bu kənddə də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

Ölkəmizdə yeni uşaq müəssisələrinin yaradılması prosesi işğaldan azad olunmuş ərazilərimizdə də uğurla davam etdirilir. Bu layihələr həmin ərazilərə köçən uşaqların asudə vaxtlarının səmərəli təşkili və onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə reallaşdırılır. Kəngərlidə kənd körpələr evi-uşaq bağçası istifadəyə verilib. Müasir standartlara uyğun inşa edilmiş 120 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların sağlam mənəvi və fiziki mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 6 qrup fəaliyyət göstərəcək. Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri aparılıb.

Kəngərli kəndində həmçinin klub-icma mərkəzi də inşa edilib. İkimərtəbəli mərkəzdə rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Burada əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Kənddə əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaradacaq yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati bina tikilib. Binada müxtəlif tədbirlərin keçiriləcəyi iclas zalı və işçilərin normal şəraitdə fəaliyyət göstərmələri üçün iş otaqları yaradılıb. Bütün bunlar uzun illər çətinlik, ağrı-acı görmüş insanların rahat, təhlükəsiz və firavan yaşaması üçün həyata keçirilir.

Qürurla deyə bilərik ki, bu günədək 14000 keçmiş məcburi köçkün əzəli torpağına qovuşub, 14 yaşayış məntəqəsində daimi məskunlaşma reallaşdırılıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 571 ailə (2091 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 376 ailə (1409 nəfər) Şuşa şəhərində, 85 ailə (341 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, 172 ailə (811 nəfər) Xocalı rayonunun Ballıca kəndində, 90 ailə (306 nəfər) Ağdərə rayonunun Həsənriz kəndində, 180 ailə (592 nəfər) Ağdərə rayonunun Suqovuşan kəndində, 184 ailə (767 nəfər) Ağdam rayonunun Sarıcalı kəndində, 60 ailə (255 nəfər) Ağdam rayonunun Kəngərli kəndində məskunlaşıb.

2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitəcək. O zamana qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin, 34 min 500 ailənin dədə-baba torpaqlarında daimi məskunlaşması təmin ediləcək. Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca uzun illərdir əsarət altında qalmış yurdlarına geri dönmək arzusu ilə yaşayan yüz minlərlə soydaşımız əzəli torpaqlarına qovuşacaqlar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## *Keçmiş məcburi köçkün:* "Ağdamı yenidən əvvəlkindən daha gözəl vəziyyətə gətirəcəyik"

"Bu gün bizim üçün çox sevindirici, ən gözəl gündür. Ağdamdan gənc yaşımda çıxmışam. İndi doğma yurduma qayıtmağın sevincini yaşayıram".




Bu sözləri Ağdam sakini Səkinə Hacıyeva AZƏRTAC-a deyib.

O qeyd edib ki, artıq uzun illərdir ata-baba yurdlarından didərgin düşən vətəndaşlarımız qısa müddətdə öz torpaqlarına qayıdır. Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Ağdam sakini doğma yurduna qayıtdığına görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib.

Bildirib ki, 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. II Qarabağ döyüşündə qazandığımız qələbə bizim şanlı tariximizdir. Xalqımız bu qələbə ilə bağlı əbədi qürur hissi keçirəcək.

"Doğma yurdumuzda hər bir işi görməyə hazırıq. Uzun illərin həsrəti bitir. Ağdamı yenidən əvvəlkindən daha gözəl vəziyyətə gətirəcəyik", - deyə o vurğulayıb.

## *Ağdam sakini:* "Arzu edirəm ki, bütün məcburi köçkünlər öz doğma el-obalarına qayıtsınlar"

Böyük qayıdışın Ağdam salnaməsi davam etməkdədir. Sevinc, qürur, fəxr hissi ilə keçmiş məcburi köçkünlərimiz öz doğma yurdlarına, el-obalarına qayıdırlar".




Bu sözləri AZƏRTAC-a keçmiş məcburi köçkün, Ağdam sakini Tavat Allahverdiyeva söyləyib. "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz tarixi qələbə qazandı, torpaqlarımızı işğaldan azad etdi. Bizə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarıq", - deyə T.Allahverdiyeva bildirib. O qeyd edib ki, işğaldan azad olunmuş Qarabağda əsaslı quruculuq işləri tam sürətlə davam edir. Erməni vandalizminin qurbanı olan tarixi abidələrimiz bərpa olunur. Bundan sonrakı ömrünü doğulub boya-başa çatdığı yerdə yaşamaq istədiyini və ailəsi ilə birgə getdiyini vurğulayıb.

Ağdam sakini torpaqlarımızın azad olunmasında əməyi olan Azərbaycan Ordusuna təşəkkür edib, qazilərə şəfa, şəhidlərə rəhmət diləyib.

Bildirib ki, 44 günlük Vətən müharibəsində canından keçərək şəhidlik zirvəsinə yüksələn bir neçə yaxınları da var.





# Mədəniyyət





Sənət dünyası

# "Mənim var-dövlətim ifalarım və bəstələdiyim mahnılardır"

**Vədələşdiyimiz kimi, illərlə çalışdığı Mədəniyyət və İncəsənət Universitetinin Musiqi sənəti fakültəsinin Xalq çalğı alətləri kafedrasında - onun iş otağında görüşürük. Köhnə tanışlar kimi hal-əhval tutduqdan sonra masanın üzərindəki tara baxdığımı görüb "Etiraz etmirəm, söhbətə tarı "dilləndirməklə" başlayaq deyirsən, elə də olsun!" dedi.**



O, tarı sinəsinə sıxıb sehirli mizrabı simlərə toxundurdu. Barmaqlar pərdələrin üstü ilə gəzdikcə sanki tar dilə gəlib nalə çəkirdi. Mənə elə gəlirdi ki, "danışan" simlər yox, onun ürəyidir. "Bayatı Şur" muğamını ifa edirdi. Başını tarının üstünə qoyub, gözlərini yumub öz aləminə qapılmışdı. İlahi, bu nə ifa, bu nə səsdir belə? Elə bil tar da sahibinin sinəsindən od alıb cuşa gəlmişdi. İlahi, bu, tar səsi deyil, xalqın minillik ruhunun mədəniyyətinin səsidir. O, muğam yox, sevgi nəğməsi, Vətən nəğməsi çalırdı. Ana laylası qədər doğma, əziz səsə bənzəyirdi bu səs...

Kim nə deyir desin, kim nə düşünür düşünsün, tar Azərbaycan xalqının ruhundan yaranmış musiqi alətidir. Azərbaycanda adlı-sanlı məşhur tar ifaçıları çox olub - Mirzə Sadıq (Sadıqcan), Mirzə Mansur Mansurov, Məşədi Zeynal Haqverdiyev, Məşədi Cəmil Əmirov, sonralar Məmmədxan Bakıxanov, Sərvər İbrahimov, Bəhram Mansurov, Həbib Bayramov, Əhsən Dadaşov...

Bu gün də bu sənətin layiqli davamçılarının sayı heç də az deyil. Onlardan biri də 25 may 1950-ci ildə Bakı şəhərində doğulan Zamiq Balarza oğlu Əliyevdir.

Ustad sənətkar söhbətə Nizami Gəncəvidən iqtibas gətirməklə başlayır: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan". İnsan gərək sənətinin vurğunu olsun, sənətini sevsin. Bütün sənətlərdə bu belədir. O cümlədən musiqidə də... Əgər qəlbən musiqiyə bağlanırsansa, ondan əl çəkməyəcəksən. Mənə gənc olanda desəydilər ki, sən dünyanı gəzəcəksən, 50-dən çox ölkədə müsiqi mədəniyyətimizi təmsil edəcəksən, Xalq artisti olacaqsan, professor kimi ali məktəbdə dərs deyəcəksən, festivalların qalibi, Prezident təqaüdçüsü olacaqsan, inanmazdım. Deyərdim, bu, çox gözəl yuxudur. Yaxşı yuxudur. Kaş doğru olaydı..."

Xəyalı onu uşaqlığına, yeniyetməlik illərinə qaytarır. Xatirə dəftərinin vərəqlərini çevirirmiş kimi ehtiyatla keçmişini xatırlayır:

- Atam sürücü işləyirdi. Mənim tarzən olmağımı heç istəmirdi. Deyirdi, tar çalmaqla ailə saxlamaq, ev-eşik sahibi olmaq mümkün deyil. "Sovetski"də - Nərimanov heykəlinin yaxınlığında "40 pilləkən" deyilən məhəllədə yaşayırdıq. "Baksovet"lə üzbəüz 132 nömrəli məktəbdə oxumuşam. O dövrdə bədii özfəaliyyət dərnəkləri, məktəbimizin yanında Yuri Qaqarin adına Pionerlər Evi var idi. Onlar məktəbləri gəzər, istedadlı uşaqları seçib incəsənətin müxtəlif sahələrinə cəlb edərdilər. Mənim də saqqızımı oğurladılar. O zaman 10 yaşındaydım...

Sənətdəki uğurlarından söz salan tarzən ilk uğurundan söz açanda gözləri dolur. Sanki o anların sevincini yenidən yaşayır. İlk qızıl medal aldığı günü belə xatırlayır: "O zaman "Cücələrim" ansamblı məşhur idi. Biz birlikdə ongünlüklərdə, Moskvada, Moldaviyada, "Artek"də dekadalarda iştirak etmişik. 1965-ci ildə 15 yaşım var idi. "Artek" pioner düşərgəsində konsertimiz var idi. Bizə demişdilər ki, İran şahı Rza Pəhləvi və həyat yoldaş Fərəh xanım da orada olacaq. "Bayatı Şiraz" muğamını solo ifa etdim. Tarın ifasını çox bəyəndilər. Bu ifama görə qızıl medalla təltif olundum".

Ömrünün 75 ilini yola salmağa hazırlaşan sənətkar sanki özü də bir həyat məktəbidir. Danışdıqca dinləmək istəyirsən. Bəlkə də ömür boyu musiqi ifa etdiyindən səsi də ahəngdar, həlim bir musiqiyə bənzəyir. "İnsan ona olan yaxşılıqları unutmamalıdır. Bir zamanlar kimlərsə sənin qolundan tutub, yol göstərib yaxşılıq edibsə, "bu, belə də olmalı idi" deyib düşünməyəsən. Sənin də imkanın, yaşın o həddə çatanda gərək sən də kiməsə arxa durmağı bacarasan. Çox xoşbəxtəm ki, qarşıma həmişə yaxşı adamlar çıxıb. İncəsənət Universitetində üçüncü kursda oxuyurdum. Orada da görkəmli sənətkarlar var idi. Şərqdə ilk opera yazan bəstəkar xanım Şəfiqə Axundova, "Dan ulduzu" instrumental ansamblının bədii rəhbəri Gülarə xanım Əliyeva... Xanəndəliklə isə Qulu Əsgərov məşğul idi. Üçüncü kursda oxuyanda dedilər ki, filarmoniyada baxış var, səni də ora çağırıblar. Mən o zaman bəzən kollektivlərdə olurdum deyə, görünür, diqqəti cəlb etdiyimə görə məni də dəvət etmişdilər. Dəvət olunan on nəfər tarzəndən bir, ya iki tarzən seçdilər. Sınaqdan keçəndən sonra Əməkdar incəsənət xadimi, bəstəkar Ağası Məşədibəyov mənə yaxınlaşaraq "Sən bizim məşqlərə gələ bilərsən?", - deyə soruşdu. O gündən dərslərimi bitirən kimi gedirdim məşqlərə. Çox həvəsli idim. 1970-ci ildə filarmoniyada tarzən kimi işə qəbul edildim. Xoşbəxt sənət adamıyam ki, həmin dövrdə o böyük sənətkarları gördüm, onlarla ünsiyyətdə olub rayonlara qastrol səfərlərinə çıxdım. Filarmoniyaya işə götürüləndə tarım yox idi. Atama dedim ki, filarmoniyada işə qəbul olmuşam, amma tarım yoxdur. "Əgər işə qəbul ediblərsə, səndə bir şey hiss ediblər" dedi. Tar almağa pulum olmadığı üçün atama dedim ki, pul versin. Soruşdu ki, tar var? Xoşuma gələn bir tar var idi, onu çox baha - 400 manata verirdilər. Dedim, bir tar var, amma bahadır. Atam cavabında "Yaxşı tar olsun, baha olması səni narahat etməsin". Nə isə, o tarı aldım. Ömür boyu bir tarım oldu. Bütün dünyanı o tarla gəzdim. O, məni dünyaya tanıtdı, mən də onu..."

Zamiq Əliyev inanclı insandır. Qismətə, taleyə çox inanır. Deyir ki, çalışqanlıqla yanaşı, gərək insanda bəxt də ola. Allah zəhməti sevən Allahdır. Xalq artisti fikirlərini belə davam etdirdi:

- Taleyim belə gətirdi ki, 3-cü kursda oxuyanda mərhum sənətkarımız Gülarə xanım məni "Dan ulduzu" instrumental ansanblına dəvət etdi. Ansamblda xalq çalğı alətlərindən bir tar, bir də ud var idi. Belə bir ansamblda tək tar ifaçısı olaraq çalışmaq mənim üçün çox böyük şərəf idi. Bir gün Gülarə xanım çağırıb mənə dedi ki, oxuyan solistimiz gəlməyib, sən get radio studiyasında bir lent yazdıracaqsan. Tarımı götürüb getdim. Mənə bir blantrant verdilər. Emin Sabitoğlunun "Bu gecə" mahnısını qorxa-qorxa ifa etdim. Həmin musiqi fondda saxlanılır. İndi də səslənəndə Gülarə xanıma rəhmət oxuyuram ki, o zaman məni məcbur etməsəydi, indi bunlar olmazdı. Sonra tale belə qismət etdi ki, mən dünyaşöhrətli müğənni Zeynəb xanımla işləməli oldum. O zaman biz ara-sıra rayonlara kiçik heyətlə konsertlərə gedirdik. Mən Ağası Məşədibəyovun rəhbərlik etdiyi kollektivdə dövlət tədbirlərində Zeynəb xanımı müşayiət etmişdim. Bir gün Zeynəb xanıma dedim ki, siz böyük sənətkarsınız, niyə sizin özünüzün ayrıca bir kollektiviniz olmasın? Dedi ki, istərdim olsun. Ancaq necə? Dedim, siz kömək edin, mən onu yaradım. Cavabında: mən istərdim Vəli Qədimov, Aftandil İsrafilov olsun, bacararsan? Düzdür, onlar məndən yaşda da, sənətdə də böyük sənətkar kimi özlərini sübut etmişdilər. Mən gənc idim. Sənətdə yeni-yeni addımlarımı atırdım. Dedim, bacararam. İlk məşqlərimiz 1979-cu ilin sonlarında Yeni il ərəfəsi, Bəstəkarlar İttifaqının binasında oldu. 1980-ci ilin Yeni il axşamı gecə saat 12 radələrində həmin heyətlə Azərbaycan televiziyasında çıxış etdik. Bu çıxışımız xalq üçün sürpriz oldu. Üstündən üç-dörd ay keçmiş, 1980-ci ildə Daşkənddə müsiqi ongünlüyü oldu. Biz də Zeynəb xanımın iştirakı ilə kollektiv olaraq ilk dəfə orada çıxış etdik. Özbəkistan səfərimiz çox uğurlu alındı. Bundan sonra xarici səfərlərimiz başladı. İlk xarici səfərimiz İspaniyaya oldu. Barselonada, Madriddə, Valensiyada, Seviliyada və bir çox şəhəri gəzib konsertlər verdik.



Xarici səfərlərdən bəhs edən tarzən bildirdi ki, onlardan ən yaddaqalanı Əfqanıstan səfəridir:

- Bakıda dövlət tədbirində idik. Konsertə Ulu Öndər Heydər Əliyevlə birlikdə Moskvadan gəlmiş Sov.İKP Siyasi Bürosunun üzvü də iştirak edirdi. Moskvadan gələn qonaq Zeynəb xanımın çıxışını görüb Ulu Öndərdən soruşub ki, Zeynəb xanıma təklif etsək, Əfqanıstanda konsert verməyə gedərmi? O zaman - 1982-ci ildə Əfqanıstanda vəziyyət yaxşı deyildi. Təsəvvür edin ki, gəlib bizə dedilər, Zeynəb xanım da dedi ki, məmnuniyyətlə gedərəm. Xatirimdədir ki, vəziyyətlə bağlı təyyarəmiz enə bilmədi. Biz Cəlalabad şəhərinə düşdük. Açıq yerdə böyük bir çadır qurmuşdular. Biz ora SSRİ-nin bir çox mədəniyyət, musiqi xadiminin təmsil olunduğu qrupla getmişdik. Azərbaycandan yalnız biz idik.

Ustad sənətkar deyir ki, sənət aləmində sözünü demək istəyirsənsə, hər addımbaşı yenilik axtarmalısan: "Ağaxan müəllimin sinfində Asəf Zeynallı adına texnikumda Simarə adlı bir qız birinci sinifdə oxuyurdu. Ağaxan bizə dedi ki, sinfimə bir qız gəlib, yaxşı olar ki, gəlib ona qulaq asasınız. Mərhum sənətkar Ədalət Vəzirovla gəlib qulaq asdıq. Bir "Mirzəhüseyn" segahı oxudu, xoşumuza gəldi. O zaman mənim gənclərlə ikinci bir kollektivim var idi. İbrahim Əbilov adına Mədəniyyət Mərkəzində gənc ifaçılarla işləyirdim. Simarə mənə yaxınlaşdı ki, məşqlərə sizin yanınıza gələ bilərəm? Dedim ki, gəl. Beləliklə, bizim Simarə xanımla birgə işimiz başladı. Mən onu böyük səhnəyə hazırladım. Nə mənada? Muğamı onsuz da ustadından öyrənirdi. Mən ona bəstəkar mahnılarını, təsnifləri, xalq mahnılarnı, zərb muğamlarımızı müşayiətlə oxumağı öyrətdim. Əmin olandan sonra bu adam böyük səhnədə istədiyimiz nəticəni əldə edə biləcək, Polad müəllimdən xahiş etdim ki, bu gənc xanım ifaçı Ulu Öndərin iştirak etdiyi dövlət tədbirində oxusun. O zaman Ulu Öndərin qarşısında sınaqdan çıxmamış 18 yaşlı bir xanımın ifasına şərait yaratmaq böyük risk tələb edirdi. Amma mən arxayın idim ki, Simarə bunu bacarar. Bir qədər vaxt keçdi. Dövlət tədbiri var idi. Polad müəllim bizim ifamızı iki dəqiqə dinləyib dedi ki, axşam saat 5-də burada olun. Simarəyə dedim ki, axşam geyimin çox səliqəli olsun. Səhnəyə kəlağayıda çıxacaqsan. Belə də oldu. Bu çıxışımız Ulu Öndərin xoşuna gəldi. Polad müəllimə demişdi ki, səhər xarici səfərə gedirəm. Bu üç nəfəri də hazırlayın, mənimlə gedəcəklər. Bundan sonra Ulu Öndər özü ilə bizi bir neçə dəfə xarici ölkəyə apardı".

Azərbaycan xalq musiqisinin uğurundan danışan tarzən deyir: "Qürurluyam ki, belə bir uğura imza atan ilk adamlardan biri də mənəm. Bir gün Mədəniyyət Nazirliyindən mənə zəng vurub dedilər ki, Səmərqənddə 46 ölkənin iştirakı ilə "Şərq təranələri" adlı ilk beynəlxalq festival keçirilir, ora gedəcəksiniz. Yay ayları idi. Səmərqənd çox isti olur. Getmək istəmədim. Polad müəllim dedi ki, mütləq siz gedəcəksiniz. Dedim, onda bir şərtlə gedərəm ki, yetirməm Simarə İmanova da bizimlə getsin. Ora başqa adamı göndərmək istəyirdilər. İsrar etdiyimi, ciddi olduğumu görüb razılaşdılar. Səmərqənddə 46 ölkədən gəlmiş böyük musiqi kollektivləri təmsil olunurdu. Azərbaycanı üç nəfər - Ədalət Vəzirov, Simarə İmanova və mən təmsil edirdik. Çox gözəl çıxış edib "Qran-pri" mükafatını aldıq. Orada dünyanın 10 ölkəsindən gəlmiş münsiflər heyəti bizi seçmişdi. Sonra münsiflər heyəti bizi öz ölkələrinə dəvət etdilər. Azərbaycana qayıdan kimi Heydər Əliyev üçümüzü də qəbul edib fəxri adlarla mükafatlandırdı. Bu da bizə böyük yaradıcılıq stimulu verdi".

Dövlət tədbirlərində iştirakından danışan professor Zamiq Əliyev deyir: "Uzun illər dövlət tədbirlərinin iştirakçısı olduğumdan niyə mən səhnəarxası görüşlər" adlı bir kitab yazmayım? deyə düşündüm. Ulu Öndər dövlət tədbirlərində iştirak edəndən sonra nə qədər yorğun olsa da, sənət adamları ilə görüşüb onlara tövsiyə, xeyir-dua verməsinin şahidi olmuşam. Fikrimi Mədəniyyət Nazirliyinə bildirdim. İdeyam bəyənildi. Ulu Öndərin 90 illiyində bu kitab çapdan çıxdı. Sonra mən fikirləşdim ki, həmin kitab niyə üç dildə - Azərbaycan, rus və ingilis dillərində olmasın? Belə də etdim. Kitabı üç dildə nəşr etdirdim. İstəyirdim ki, bütün dünya Ulu Öndərin sənətə və sənətkara olan münasibətini bilsin".

Ömrünün 75 ilini yola salan ustad sənətkar deyir: "Sənət adamının ən böyük qazancı ondadır ki, özündən sonra elə bir var-dövlət qoysun ki, ona ölməzlik qazandırsın. Mənim var-dövlətim ifalarım və bəstələdiyim mahnılardır. Hər dəfə tarı sinəmə sıxanda deyirəm: "Oxu tar, oxu tar, səni kim unudar".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Gənc aktyorlarımız

# Sənət yolunda atılan inamlı addımlar

**Dövlətimizin iqtisadi, siyasi, mədəni həyatında, bütövlükdə inkişafında gənclərimizin rolu əvəzsizdir. Bütün sahələrdə hər addımda onlara dövlət tərəfindən yüksək qayğı göstərilir, fəaliyyətləri diqqət mərkəzində saxlanılır. Tarixi inkişaf yolumuzun bütün mərhələlərində uğurlar qazanan gənclərimiz ölkəmizin işıqlı gələcəyi naminə həmişə inamla ön sıralarda addımlayıblar. Onlar geniş, hərtərəfli fəaliyyətləri, istedadları, bacarıqları, əzmkarlıqları ilə dövlətimizin tərəqqisinə və inkişafına bir-birindən dəyərli töhfələr veriblər.**



Bu gün gənclərimiz dövlətçiliyimizin çiçəklənməsi, güclənməsi və qüdrətlənməsi naminə fəallıq göstərirlər. Onlar iştirakçısı olduqları yarışlarda ölkəmizi layiqincə təmsil edir, oxuduqları ali təhsil ocaqlarında biliklərə yiyələnə-yiyələnə Azərbaycanın layiqli vətəndaşı olmağa çalışırlar.

Gündən-günə gücünü, qüdrətini artıran dövlətimizin gənclərə hərtərəfli diqqət və qayğı göstərməsi onlarda özlərinə, istedadlarına, potensiallarına inam hissini daha da gücləndirir. Dövlət onlara oxumaq, işləmək və cəmiyyətin müxtəlif sahələrində fəaliyyət göstərmək, uğur qazanmaq üçün geniş imkanlar yaradır. Yaşamağa, oxumağa, işləməyə, yeni-yeni zirvələri fəth etməyə, dövlətimizə, dövlətçiliyimizə və xalqımıza xidmət göstərməyə həvəsləndirir.

Gənclərimiz bacarıq və istedadları, təhsildə qazandıqları uğurları ilə ölkəmizin inkişaf, tərəqqi tarixinə yeni səhifələr yazırlar, Azərbaycanımızın işıqlı gələcəyi naminə yorulmaq bilmədən çalışırlar. Belə gənclərimizdən biri də Əliulla Aydın oğlu Vəliyevdir. Əliulla çox gəncdir, iyirmi yaşın içindədir. Ürəyi, qəlbi arzu və istəklərlə doludur. Ömrünün ən gözəl, ən təravətli çağlarını yaşayır. Yaşı az olsa da, artıq Ə.Vəliyev xeyli uğur qazanıb, gələcək həyatının bünövrəsini etibarlı şəkildə qurub. Dostları, yoldaşları arasında az-çox tanınıb, müəllimləri tərəfindən sevilib. Arzularının ardınca gedən Əliulla 2022-ci ildə sınaqlardan uğurla keçərək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatr və kino aktyorluğu fakültəsinə qəbul olub.

Söhbət zamanı Əliulla Vəliyevin ömür yoluna qısaca nəzər yetirdik. Öyrəndik ki, o, 2005-ci il sentyabrın 1-də Bakı şəhərində dünyaya göz açıb. Kiçik yaşlarından incəsənət sahəsinə böyük maraq göstərib. Orta təhsilini Azərbaycan Milli Konservatoriyasının nəzdindəki İncəsənət Gimnaziyasında alıb. Aldığı təhsil onun bu sahəyə olan maraq və həvəsini daha da artırıb.

Əliulla hələ kiçik yaşlarından həm ölkə daxilində, həm də xarici dövlətlərdə keçirilən bir-birindən maraqlı tədbirlərdə iştirak edib. 2018-ci ildə Türkiyənin Bursa şəhərində təşkil edilmiş Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş tədbir onun üçün çox yaddaqalan olub. 2019-cu ildə Türkiyənin Kayseri şəhərində İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş tədbirdə isə Əliulla əsərlərini, çox sevdiyi dahi şairimizin obrazını canlandırıb. Böyük sevgi və məhəbbətlə dünyada sevilən, oxunan və daim ehtiramla yad edilən görkəmli Azərbaycan şairi Nəsiminin şeirlərini səsləndirib. Bütün bunlarla yanaşı, Əliulla Vəliyev əlamətdar günlərlə bağlı müntəzəm olaraq Yeni Azərbaycan Partiyası, Bakı Şəhər İcra Hakimiyyəti və başqa təşkilatlar tərəfindən keçirilən tədbirlərdə də fəal iştirak edib. Üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. İştirakçısı olduğu bu tədbirlər Əliullanın dünyagörüşünün formalaşmasında mühüm rol oynayıb, onu sənət aləminə daha da həvəsləndirib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olandan sonra da Əliulla bir çox mühüm tədbirdə iştirak edib. 2023-cü il iyun ayı onun üçün çox əlamətdar olub. Həmin il Ə.Vəliyev Rusiya Dövlət Teatr Sənəti İnstitutunun təşkilatçılığı ilə Qırğızıstan Respublikasında keçirilən ustad dərslərində iştirak edib. İştirakçısı olduğu ustad dərsləri ona xeyli təcrübə qazandırıb.

2024-cü ilin noyabr ayı da Əliulla üçün əlamətdar olub. Həmin ay o, iki müsabiqədə iştirak edib. Gözlənildiyi kimi ikisində də uğur qazanıb. Mədəniyyət Nazirliyi Azərbaycan Teatr Xadimləri İttifaqı tətəfindən keçirilmiş "Zəfərimiz - Şərəfimiz" bədii qiraət musabiqəsinə həvəslə qatılan Ə.Vəliyev bacarığı və istedadı ilə fərqlənərək diploma layiq görülüb. 20-25 noyabr 2024-cü ildə isə Əliulla Belarus Respublikasının paytaxtı Minsk şəhərində görkəmli rus şairi A.S.Puşkinın 225 illiyinə həsr olunmuş "Dobrıy skaz" adlı bədii qiraət müsabiqəsində də iştirak edib. Bu müsabiqədə də nümayiş etdirdiyi bacarığına görə "Qran-pri" mükafatına layiq görülüb.

Söhbət zamanı öyrəndik ki, gələcəyin aktyoru olacaq Əliulla Vəliyevin atası Əməkdar müəllim Ənvər Vəliyev bir zamanlar bu ali təhsil ocağında müəllim işləyib, dərs deyib, gələcəyin sənət adamlarına elm və biliklər öyrədib. İndi oğlu atasının yolunu davam etdirir, onun açdığı cığırla incəsənət aləminin dərinliklərinə doğru inamla addımlayır. Əliullanın sənət yolunda atdığı bu inamlı addımlar onu bütün arzularına qovuşduracaq.

Gələcəyin istedadlı aktyoru olacaq Əliulla öz üzərində yorulmadan çalışır. Həm nəzəri, həm də praktiki dərslərdə fəal iştirak edir. Təcrübə və peşəkarlığını daha da artırmaq üçün Gənc Tamaşaçılar Teatrında məşqlərə gedir. Məqsədi aktyorluq sənətini dərindən öyrənmək və bu sahənin peşəkarı olmaq, bir-birindən maraqlı obrazlar yaratmaqdır.

Söhbət zamanı Əliulla sevdiyi, rəğbət bəslədiyi aktyorların adlarını da çəkdi. Dedi ki, teatr və kinolarda oynadıqları rollarını bəyəndiyim aktyorlarımız çoxdur. Biz onlardan çox şey öyrənirik. Ən böyük hörmət və rəğbət bəslədiyim aktyorlar isə Hamlet Xanızadə və Rasim Balayevdir. Onlar bacarıq və peşəkarlıqları ilə səhnəmizdə, kinomuzda dərin izlər qoyublar. Biz gənclər də çalışacağıq ki, bu sənətkarların yaradıcılıq yolunu uğurla davam etdirək. Onları təkrar etmədən incəsənət aləmində yeni yollar və cığırlar açaq.

Hansı sahə olursa-olsun, istedad, bacarıq, işgüzarlıq və peşəkarlıq gec-tez özünü qabarıq şəkildə göstərir. Elə uğurun, zəfərin, qələbənin düsturu da istedad, bacarıq və peşəkarlıqdır. Biz söhbət zamanı gələcəyin tanınmış aktyoru olacaq Əliullada bütün bu müsbət keyfiyyətləri gördük. İnanırıq ki, bu gün dərslərində fərqlənən, müsabiqələrdə müxtəlif mükafatlar qazanan, yorulmadan həvəslə məşqlərə gedən, ürəyi arzu və istəklərlə dolu olan Əliulla Vəliyev sabah səhnəmizin ən sevilən aktyorlarından biri olacaq. Filmlərdə və teatr tamaşalarında yaradacağı obrazları ilə yaddaşlarda dərin iz qoyacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycanın Əməkdar artisti Türkmənistanda beynəlxalq tədbirdə ölkəmizi təmsil edib

**Azərbaycan Respublikasının Əməkdar artisti Səidə Şərifəliyeva Türkmənistanın paytaxtı Aşqabadda keçirilən "Dünyanın musiqisi" adlı beynəlxalq festivalda ölkəmizi təmsil edib.**



Azərbaycanın Türkmənistandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, Türkmənistan Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycanın Türkmənistandakı səfirliyinin dəstəyi ilə ölkəmizin də təmsil olunduğu bu nüfuzlu tədbir klassik musiqi sahəsində müxtəlif milli musiqi məktəblərini əhatə edən ifaçılar arasında yaradıcılıq əlaqələrinin qurulması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və klassik musiqi sənətinin təbliği məqsədini daşıyıb.

Tədbirdə opera ifaçıları, klassik musiqi alətlərinin ifaçıları, həmçinin trio, kvartet və kvintetlərdən ibarət musiqi kollektivləri iştirak ediblər.

Azərbaycanı layiqincə təmsil edən Səidə Şərifəliyevanın ifaları tədbir iştirakçıları və təşkilatçıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

Onun ifasında səsləndirilən klassik musiqi nümunələri Azərbaycanın zəngin mədəniyyətini və musiqi ənənələrini nümayiş etdirərək, ölkəmizin incəsənət sahəsindəki yüksək potensialını bir daha ortaya qoyub. İfaçının həmçinin Azərbaycan Prezidentinin sərəncamı ilə ölkəmizdə və bütün dünyada 140 illiyi qeyd olunan dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin əsərlərindən təqdim etdiyi nümunələr tamaşaçılar tərəfindən xüsusi maraqla qarşılanıb.

Əməkdar artist Səidə Şərifəliyevanın ifasında səsləndirilən Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası və Türkmənistanın məşhur vokalisti Mənsur Şərifovla birgə ifa etdiyi Əsgərlə Gülçöhrənin dueti xüsusi olaraq rəğbətlə qarşılanıb.

# Azərbaycan Kunq-Fu Federasiyasının prezidenti: "Əminə Əliyeva dünya çempionatında əzmkarlıq nümayiş etdirdi"





İtaliyanın Peruca şəhərində kunq-fu üzrə dünya çempionatında idmançılarımız tarixi nəticə əldə etdilər.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Kunq-Fu Federasiyasının prezidenti Nurlan Aslanov jurnalistlərə açıqlamasında deyib.

O, qızlar arasında yarışda dünya çempionu olan Əminə Əliyevanın əzmkarlıq nümayiş etdirdiyini bildirib: "Əminə Əliyeva ilk dəfə idi döyüş tatamisinə ayaq basırdı. Həyəcanın olması normaldır. Amma döyüşün ilk saniyələrindən göstərdiyi cəsarət hamımızı heyrətləndirdi. Bu uğurun arxasında böyük əziyyət dayanır. Əminənin nailiyyəti əzmkarlığın göstəricisidir. Əminənin şəxsi məşqçisi federasiyamızın şəxsi məşqçisi Babək Əliyevdir. O, peşəkar mütəxəssisdir". Federasiya rəhbəri komandaya dəstək olan bütün azarkeşlərə təşəkkür edib.

Qeyd edək ki, mundialda "light sanda" növü üzrə mübarizə aparan idmançılarımız yarışı 5-i qızıl, 2-si gümüş olmaqla, ümumilikdə 7 medalla başa vurublar. Azərbaycan yığması bu nəticə ilə komanda hesabında isə 3-cü yerin sahibi olub.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN” qəzetinə**

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Sülh prosesinə XIV Leo da qoşulur

## Kiyevlə Moskva arasında növbəti danışıqlar Vatikanda keçirilə bilər

Xəbər verildiyi kimi, bazar ertəsi axşam Rusiya və ABŞ liderləri Vladimir Putin və Donald Tramp arasında telefon danışığı olub. Söhbət iki saatdan çox davam edib.



Britaniyanın "Financial Times" nəşri xəbər verir ki, Donald Tramp Vladimir Putinlə söhbətin təfərrüatlarını onlarla bölüşəndə Avropa liderləri təəccübləniblər. Tramp bildirib ki, Putinlə zəngdən dərhal sonra söhbətin mahiyyətini Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Finlandiya və Avropa Komissiyası liderləri ilə birlikdə Ukrayna Prezidenti Volodimir Zelenskiyə çatdırıb. Söhbətlə tanış olan mənbə bildirib ki, liderlər Trampın onlara dediklərindən məəttəl qalıblar. "The Economist" narazılıq edib ki, Tramp Putinlə kifayət qədər sərt davranmır. "The Guardian" qəzeti isə qeyd edir ki, Putin hazırda güclü mövqedədir: "Putin güvən və laqeydlik nümayiş etdirərək bazar ertəsi Soçidə musiqi məktəbinə səfəri zamanı Trampa zəng edib. Onun cəsarətinə Rusiyanın döyüş meydanında ləng, lakin davamlı üstünlüyü və buna Avropanın dağınıq reaksiyası, eləcə də uzun sürən silahlı münaqişəyə getdikcə daha çox uyğunlaşan daxili iqtisadiyyat səbəb olub".

Bloomberg agentliyi, həmçinin Avropa liderlərinin yarımçıq ümidlərindən danışır: "11 gün əvvəl Avropa liderlərini Prezident Donald Trampın Ukraynada 30 günlük atəşkəs çağırışı və Rusiyaya qarşı yeni sanksiyalarla hədələməsi sevindirib. Bazar ertəsi Vladimir Putinlə telefon danışığı bu ümidlərin puç olduğunu göstərib". Qərb mediası onu da qeyd edir ki, ABŞ danışıqlar prosesindən çıxa bilər: "Putinlə iki saatlıq söhbətdən sonra Tramp sosial mediada deyib ki, Ukrayna və Rusiya atəşkəslə bağlı dərhal danışıqlara başlayacaqlar. Lakin güman ki, ABŞ-nin iştirakı olmadan... Nə sanksiya təhdidi, nə vaxt qrafiki tələbi, nə də Rusiya liderinə təzyiq olub".

Öz növbəsində, "Washington Post" qəzeti münaqişə tərəflərini danışıqlara çağırdığı üçün Trampı tərifləyir və görüşün Vatikanda keçirilə biləcəyini qeyd edir: "Qoy proses başlasın!", - deyə Prezident Donald Tramp bazar ertəsi Prezident Vladimir Putinlə telefon danışığından sonra Rusiya və Ukrayna arasında münaqişəyə son qoymaq üçün danışıqların başlandığını bəyan edib. Papa XIV Leo danışıqları Vatikanda keçirməyə hazırdır".

"The New York Times" nəşri isə Trampın Rusiyaya qarşı hədələrindən əl çəkdiyinə diqqət çəkir: "Prezident Tramp bazar ertəsi Rusiyanın Ukraynada dərhal atəşkəs elan etməsi tələbindən geri çəkilərək Prezident Vladimir Putinin Kiyev və Moskva arasında danışıqlara çağırışını dəstəkləyib. Beləliklə, Tramp Rusiyaya təzyiqləri artırmaqla bağlı son hədələrindən geri çəkilib - məsələn, apreldə o, yeni sanksiyalar perspektivi haqqında danışmışdı". Qəzet yazır ki, yeni sanksiyalar gözlənilmir, əksinə, Rusiya ilə ticarət əlaqələrinin bərpasından danışılır: "Prezidentin bəyanatında Rusiyanın ABŞ ilə irimiqyaslı iqtisadi fəaliyyəti bərpa etmək istədiyi vurğulanıb və Trampın əvvəllər Kremlə tətbiq etməyi düşündüyü sanksiyalar barədə heç nə deyilməyb. Tramp bildirib: "Rusiya bu qırğın bitdikdən sonra ABŞ ilə genişmiqyaslı ticarət etmək istəyir və mən bununla razıyam".

Bu arada Putin Trampla söhbətini dəyərləndirib. Rusiya Prezidentinin sözlərinə görə, Amerika lideri ilə dialoq faydalı olub. Məsələn, o qeyd edib ki, amerikalı həmkarı Rusiyanın da Ukraynada baş verənlərin sülh yolu ilə nizamlanmasının tərəfdarı olduğunu anlayır. Bundan əlavə, tərəflər Ukrayna ilə mümkün sülh müqaviləsi üzrə memorandum üzərində işə başlamaq barədə razılığa gəliblər.

Avropada, məsələn, Almaniyada Putinlə Trampın söhbətinin nəticələri gözlənilən reaksiyalarla qarşılanıb. Almaniya Nazirlər Kabineti bəyan edib ki, Avropa İttifaqı ölkələri Rusiyaya qarşı sanksiya təzyiqlərini artırmağa razılaşıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Otuz dörd ildə 3400-dən çox azərbaycanlı mina qurbanı olub

Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyəti davam etdirilir. Mina təhlükəsi ilə mübarizə istiqamətində fəaliyyətin gedişatı və ictimaiyyətin bu sahədə məlumatlandırılmasının artırılması məqsədilə azad edilmiş ərazilərə mütəmadi mediaturlar keçirilir.







AZƏRTAC verir ki, növbəti mediatur Fövqəladə Hallar Nazirliyi və Minatəmizləmə Agentliyi tərəfindən Ağdam rayonuna təşkil edilib. 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra ərazilərin minalardan və partlamamış hərbi sursatlardan, o cümlədən partlamamış qalıqlardan təmizlənməsi əməliyyatlarına müvafiq qurumlarla yanaşı, bu sahədə təlim keçmiş Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin xüsusi təyinatlı hərbi hissəsi də cəlb olunub. Əməliyyatlar təyin olunmuş istiqamətlər üzrə kənd və qəsəbələrdə, eləcə də içməli su hövzələrinin kənar ərazilərində, su kanalları boyunca aparılır.

Jurnalistlər əvvəlcə Fövqəladə Hallar Nazirliyi tərəfindən Ağdam rayonunun Mollalar, Kürdlər və Əlimədətli kəndlərinin ərazilərinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi prosesini izləyiblər. FHN-nin əməkdaşı Ələkbər Ələkbərov jurnalistlərə açıqlamasında bildirib ki, minatəmizləmə əməliyyatına cəlb olunmuş şəxsi heyət ən müasir texnika və avadanlıqlarla, o cümlədən xüsusi təyinatlı mexaniki minatəmizləmə maşınları ilə təchiz edilib. Əməkdaşlar bu sahədə beynəlxalq kurslarda iştirak edərək akkreditasiyadan keçiblər.

Təmizləmə əməliyyatları əllə minatəmizləmə, minaaxtaran itlər və xüsusi təyinatlı mexaniki minatəmizləmə maşınları vasitəsilə həyata keçirilir.

Sonra ANAMA tərəfindən Sarıcalı kəndi ərazisində icra edilən minatəmizləmə əməliyyatları ilə tanışlıq olub. ANAMA-nın əməliyyat rəhbəri Xaliq Zülfüqarov jurnalistlərə açıqlamasında deyib ki, Ağdam rayonunun Sarıcalı kəndinin yenidən qurulması ilə bağlı dövlət tapşırığına uyğun olaraq, həmin ərazilər təmizlənib, evlər tikilib və əhali köçürülüb. Hazırda Sarıcalı kəndinin ətrafında təhlükəsizlik üçün əlavə ərazilər təmizlənir. Təmizləmə fəaliyyətinə ANAMA-nın mina axtarma heyəti ilə yanaşı, mexaniki minatəmizləmə vasitələri və xüsusi təlim keçmiş minaaxtaran itlər cəlb olunub.

O bildirib ki, təmizlənmə işi görüləcək ərazi keçmiş təmas xəttinin ərazisidir: "Bura minalarla, partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ərazilərdən biri sayılır. Gün ərzində piyada əleyhinə, tank əleyhinə minalar və həmçinin müxtəlif təyinatlı partlamamış hərbi sursatlar aşkarlanır. Bu gün iş gününün sonunda ərazidə tapılmış minaların partlayış yolu ilə zərərsizləşdirilməsi nümayiş olunacaq".

Xaliq Zülfüqarov vətəndaşlara çağırış edərək deyib: "Təhlükəli ərazilərdən uzaq durun, şübhəli əşyalara toxunmayın və bu barədə dərhal məlumat verin. Təhlükəli hallarla rastlaşarsınızsa 805, 102 və ya 112 qaynar xətlərinə zəng edin".

Sonra tapılmış minalar zərərsizləşdirilib.

Qeyd edək ki, Ağdam rayonunda aparılan minatəmizləmə əməliyyatları nəticəsində 37 min 154 hektar ərazi təmizlənib, 31 min 500 ədəd mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Ağdam rayonunda Bərdə-Ağdam dəmiryolu, Bərdə-Ağdam avtomobil yolu, Füzuli-Ağdam avtomobil yolu, Ağdam-Hindarx-Ağcabədi avtomobil yolu, Ağdam sənaye parkı ərazisi, əkin sahələri, meyvə bağları, qeyri-filiz mineral-xammal yatağı əraziləri, su kanalları, qaz xətləri və digər infrastruktur layihələrinin mina və müharibənin digər partlayıcı qalıqlarından təmizlənməsi fəaliyyəti icra edilib.

Xatırladaq ki, Azərbaycan dünyada minalarla ən çox çirkləndirilmiş ölkələr sırasındadır. İlkin qiymətləndirmələrə görə, Ermənistan işğal dövründə torpaqlarımıza 1,5 milyon mina basdırılıb. Ermənistan hələ də müxtəlif bəhanələrlə dəqiqləşdirilmiş mina xəritələrini verməkdən boyun qaçırır. Bu isə tez-tez mina hadisələrinin yaşanmasına, nəticədə insan itkilərinə səbəb olur. Minalar və partlamamış hərbi sursatlar azad olunmuş ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasına da maneə törədir.

Bütün bunlara baxmayaraq, Azərbaycan humanitar minatəmizləmə fəaliyyəti kimi çətin prosesi öz resursları hesabına həyata keçirir. Minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə edilməklə Beynəlxalq Minatəmizləmə Standartlarına uyğun icra olunur.

10 noyabr 2020-ci ildən 19 may 2025-ci ilədək aparılan minatəmizləmə əməliyyatları nəticəsində işğaldan azad edilmiş 200 min 321 hektar ərazi təmizlənib, ümumilikdə 196 min 56 ədəd mina və partlamamış hərbi sursat (PHS) aşkar edilərək zərərsizləşdirilib. Onlardan 137 min 422 ədədi PHS, 36 min 881 ədədi piyada əleyhinə minalar (PƏM), 21 min 753 ədədi isə tank əleyhinə minalardır (TƏM).

Ermənistanın mina terrorunun statistikası:

- 10 noyabr 2020-ci ildən 19 may 2025-ci ildək 237 mina hadisəsi qeydə alınıb.

- 10 noyabr 2020-ci ildən 19 may 2025-ci ildək 394 nəfər mina qurbanı olub. 394 nəfər mina qurbanlarından ümumilikdə 70 nəfəri həlak olub, 324 nəfəri müxtəlif dərəcəli xəsarət alıb. Mina qurbanlarının 14-ü azyaşlı və gənc, 1-i qadın olmaqla, 210 nəfəri mülki şəxsdir, onlardan 55 nəfər həlak olub, 155 nəfər isə müxtəlif dərəcəli xəsarət alıb.

- Mina qurbanlarının sırasında xidməti vəzifələrini yerinə yetirərkən mina partlayışı nəticəsində həlak olmuş media nümayəndələri də var.

- 1991-ci ildən bu günədək 3400 nəfərdən çox insan mina qurbanı olub. Onlardan 362 nəfəri azyaşlı və gənc, 38 nəfəri qadınlardır.

# Hava yağmursuz olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 16-18° isti, gündüz 20-24° isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 50-60 faiz olacaq.



Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-19° isti, gündüz 25-30° isti, dağlarda gecə 6-11° isti, gündüz 15-20° isti olacağı gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

AMEA Arxeologiya və Antropologiya İnstitutunun kollektivi institutun əməkdaşı

**QOŞQAR ORUC OĞLU QOŞQARLININ**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı Baş Səhiyyə Mərkəzinin 45 nömrəli şəhər poliklinikasının rəhbərliyi və kollektivi iş yoldaşları Murad Ələkbərliyə atası, şair-jurnalist

**MƏNSUR ABBAS OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3569**
**Sifariş 1025**

**Qiyməti 60 qəpik**